EVDƏ QAL,
SAĞLAM QAL!

İnsan haqlarının müdafiəsini özlərinin missiyası elan edən “Freedom House”, “Amnesty International” və “Human Rights Watch” təşkilatlarını törədilmiş hadisələrə ədalətli qiymət verməyə çağırıram



Bax 4

**Hikmət Hacıyev: “Azərbaycan ATƏT-in Minsk qrupu çərçivəsində konkret danışıqların tərəfdarıdır”**




Bax 8



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 126 (6090) 25 iyul 2020-ci il. Qiyməti 40 qəpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# İlham Əliyev: “Azərbaycanda içməli su və suvarma suyu ilə təminat 100 faiz olmalıdır”




Bax 2

## Əli Əhmədov: “Azərbaycan xalqı addım-addım qələbəyə doğru irəliləyir”

Bax 6



“Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin indiyə kimi tənzimlənməməsi Ermənistanın ardıcıl olaraq davam edən təxribatları üçün “münbit” zəmin yaradıb. İyulun 12-də dövlət sərhəddinin Tovuz rayonu istiqamətində törədilən təxribat nəticəsində baş verən qanlı toqquşmalar da bunun nümunəsi sayıla bilər”...

## Adil Əliyev: “Mən, sapı özümüzdən olan baltaların, öz dövlətinə, millətinə qarşı düşmənçəliyini başa düşmürəm”

*“Dostlar, ölkəmizə qarşı baş verən erməni təxribatına səssiz qalmayan və dünyanın müxtəlif ölkələrində bu təcavüzə diqqət çəkən həmvətənlilərimizlə fəxr etməmək mümkün deyil...*



Bax 6

## “Neftçi”nin yeni transferi: “Arzum Braziliya millisində oynamaqdır”



Bax 16

“Neftçi”yə menecerimin vasitəçiliyi ilə gəlmişəm. Daha sonra klub haqqında maraqlandım. Öyrəndim ki, ölkənin ən zəngin tarixə malik klubudur, güclü komandadır. Bu isə təklifi qəbul etməyimdə kömək oldu”. Bu sözləri “Neftçi”nin yeni transferi Rener Alves De Souza klubun televiziyasına müsahibəsində deyib...

## Quduzlaşmış işğalçı rejim xalqın hiddəti qarşısında tab gətirmir



Zaman-zaman Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış edən ermənilər bu gün də öz saxtakarlıqlarından əl çəkmirlər. Amma etiraf etmək lazımdır ki, saxtakarlıq yolu tutan bu xalqın cəfəng iddialarına sadəcə...

Bax 11

## Rusiya beynəlxalq axtarışda olan 3 nəfəri Azərbaycana təhvil verib



Rusiya Baş Prokurorluğu Azərbaycan tərəfinin istəyi əsasında Azərbaycan ərazisində cinayət törətməkdə təqsirləndirilənləri cinayət təqibi üçün təhvil verib. Bu barədə Rusiya Federasiyası Baş Prokurorluğu xəbər verir...

Bax 10

## Bakıda Orduya dəstək yürüşündə təxribat törətməyə çalışan AXCP üzvləri açıqlandı



İyulun 14-dən 15-nə keçən gecə Bakıda ictimai qaydanın kobud surətdə pozulması hallarına yol verən daha bir qrup şəxs barəsində həbs qətimkan tədbiri seçilib. SİA-nın məlumatına görə, aparılan istintaq prosesi xalqın vətənpərvərlik hissləri ilə oynamaqla parlamentə hücum edərək xaos yaratmaq istəyən şəxslərin AXCP üzvləri və radikal dindarlar olduğunu təsdiqləyir.

Bax 14

## ICESCO İslam dünyasında su təhlükəsizliyi mövzusunda forum keçirəcək



Bax 7

## Xarici mətbuat: “Münaqişə fonunda Ermənistanda siyasi qütbləşmə gedir”



Bax 5

## Messi Milanda ev aldı!



Bax 16

# İlham Əliyev: “Azərbaycanda içməli su və suvarma suyu ilə təminat 100 faiz olmalıdır”

***Uzun illər ərzində aparılan ölkədə aparılan böyük quruculuq işləri içərisində irimiqyaslı meliorasiya və su təsərrüfatı sistemləri və qurğuları tikilib istismara verilmiş, çoxsahəli meliorasiya və su təsərrüfatı kompleksi yaradılmışdır. Bununla belə, müasir dövrdə ölkənin dinamik sosial-iqtisadi inkişafı bu sahədə iqtisadi münasibətlərin təkmilləşdirilməsini, dövlət idarəetməsinin və təsərrüfat fəaliyyətinin bazar iqtisadiyyatı prinsiplərinə uyğun olaraq həyata keçirilməsini tələb edir. Prezident yanında su təsərrüfatının vəziyyətinə həsr olunmuş videoformatda keçirilən müşavirədə də ölkə Prezidenti İlham Əliynv bu sahədə mövcud olan problemlər və görüləcək işlər haqında danışıb və tapşırıqlarını verib. “***




Nədir, siz istəyirsiniz Azərbaycan səhraya dönsün?” “Dediyim kimi, indi mənə hər gün 10-dan çox məktub gəlir. Mən Prezident Administrasiyasına, Nazirlər Kabinetinə tapşırıq verirəm. Onlar baxırlar, operativ şəkildə həll edirlər. Axı bu onların, demək olar ki, əsas işi deyil. Bunu aidiyyəti qurumlar etməlidirlər. Nə üçün bu məktublar mənə yazılır? Ona görə ki, aidiyyəti qurumlara yazılanda onlar əhəmiyyət vermirlər, başdan edirlər. Nə qədər belə faktlar var. Biz nə qədər buna dözməliyik?” Bunu Prezident İlham Əliyev su təsərrüfatının vəziyyətinə dair videoformatda keçirilən müşavirə zamanı deyib.

Dövlət başçısı bildirib ki, vəziyyətin tam təhlili zamanı bu il aprel ayında xüsusi komissiya yaradılıb: “artıq komissiya üç aydır ki, işləyir və bu müddət ərzində gördüyü işlər, mövcud problemlərlə bağlı müntəzəm olaraq mənə məlumat verib. Komissiyanın rəhbəri Baş Nazirin müavini Şahin Mustafayevdir. Komissiyanın tərkibində nazirlər, aidiyyəti qurumların rəhbərləri fəaliyyət göstərirlər. Əgər bütün aidiyyəti qurumlar öz işini düzgün qursaydılar, bu komissiyaya ehtiyac olmayacaqdı. Necə ola bilər ki, üç ay ərzində işləyən komissiya bəlkə də son 20 il ərzində görülən, təhlil və təklif baxımından daha dəyərli, əhəmiyyətli nəticə hasil edib? Deməli, bunu etmək mümkündür. Sadəcə olaraq, heç kimin vecinə deyildi, biri-birinin üstünə yıxırdı. Ortalıqda da nə - quraqlıq. Bu problem iki ildir var və gələn il də ola bilər. İndi iqlim dəyişikliyi elə məsələdir ki, bunu bütün dünya müzakirə edir. Bəzi hesablamalara görə, əgər operativ tədbirlər görülməsə, 2030-cu ildə ölkəmizdə səhralaşma prosesi sürətlə gedəcək. Nədir, siz istəyirsiniz Azərbaycan səhraya dönsün? Ona görə bu münasibətə son qoyulmalıdır. Qüsurlara yol verən, bu məsələyə laqeyd yanaşan bütün vəzifəli şəxslər cəzalandırılmalıdır”.

Prezident su təsərrüfatında yaranmış nöqsanlara görə bəzi qurumları tənqid etdi Dövlət başçısı bildirib ki, biz müasir texnologiyaların, o cümlədən müasir suvarma sistemlərinin mövcud olduğu taxılçılıq təsərrüfatlarında hər hektardan təqribən 70-80 sentner buğda alırıq: “Bu, inkişaf etmiş ölkələrin səviyyəsindədir. Yəni bu, dünyada ən yüksək səviyyədir, bundan yüksək səviyyə yoxdur. Əgər su olmasa, biz buna nail ola bilərikmi? Biz indi taxılçılıqda müasir texnologiyaların tətbiq edilməsi ilə mövcud əkin sahələrində, bəlkə də bir qədər az əkin sahələrində daha çox məhsul istehsal edə bilərik, idxaldan daha az asılı ola bilərik. Su həm həyatdır, həm inkişafdır, həm təhlükəsizlikdir. Ona görə bu məsələlərə laqeyd yanaşmaq olmaz. Açıq deməliyəm, bu iş başlı-başına buraxılıb, heç kim bu məsələ ilə məşğul olmayıb. Aidiyyəti qurumların hər biri öz işləri ilə məşğul idi, koordinasiya aparılmamışdır. Azərsu, meliorasiya qurumları, sadəcə olaraq, dövlət investisiya proqramı müzakirə olunarkən fəallaşırdılar ki, onlara nə qədər dövlət büdcəsindən pay düşəcək. Bəzi hallarda onların təklif etdikləri layihələr, ümumiyyətlə, diqqətəlayiq deyildi. Sadəcə olaraq görürdüm ki, burada məqsəd dövlət vəsaiti götürüb ondan istifadə etməkdir. Amma ondan sonra bu layihələrin səmərəliliyinə kimsə baxıb? Kimsə bunu təhlil edib? Yox. Ona görə bəzi böyük həcmdə investisiya qoyulmuş layihələr faktiki olaraq heç bir səmərə verməyib. Necə ola bilər ki, suyun mənbəyi düzgün təhlil edilmir? O qədər böyük xərc çəkilir, boru xətləri çəkilir, vətəndaşlar buna sevinir. Sonradan min dənə bəhanə gətirirlər ki, belə oldu, elə oldu, su çatmadı, yeni mənbə axtarmalıyıq, yenə vəsait verin, yeni mənbə axtaracağıq. Buna son qoyulmalıdır. Ona görə mən bütün bu işləri mütəşəkkil qaydada tənzimləyəcəyəm. Aidiyyəti qurumlara göstərişlər verilib. Ciddi nəzarət mexanizmi olmalıdır. İlk növbədə, xərclərə ciddi nəzarət mexanizmi olmalıdır. Yoxsa Azərsudan, “Meliorasiya və Su Təsərrüfatı” Səhmdar Cəmiyyətindən sifariş gəlir, mənə bu qədər pul lazımdır ki, bunu edim. Amma sonra baxıb görürlər ki, bunun texniki-iqtisadi əsaslandırması yoxdur. Bu rəqəmlər haradan götürülüb? Havadan”.

Prezident İlham Əliyev deyib ki, investisiya proqramına ciddi nəzarət yox idi, nəyi sifariş edirdilər, onu da verirdilər: “Bəs sonra necə xərclənirdi? Buna son qoyulmalıdır. Ona görə bugünkü müşavirədə mən giriş sözümdə deyirəm hansı işlər görülüb. Amma bu işlərin görülməsi nəticəsində daha böyük səmərə əldə oluna bilərdi. Əfsuslar olsun ki, bu, belə deyil. Bundan sonra bu işlər yalnız koordinasiya şəklində aparılmalıdır. İndi mənə məlumat verilir ki, bizdə heç vaxt su balansı tərtib edilməmişdir. Necə ola bilər? Bizim enerji balansımız tərtib olunur. Buna görə biz bilirik ilboyu bu sahədə nə etmək lazımdır? Hansı quruma nə qədər yanacaq lazımdır? Məgər su balansını tərtib etməyi Prezidentmi deməlidir?! Bunu aidiyyəti qurumlar etməlidirlər. Bizim yeraltı, yerüstü su ehtiyatlarımız qiymətləndirilməyib. Son dəfə sovet vaxtında qiymətləndirilib, ondan sonra qiymətləndirilməyib. İndi artezian quyularının qazılması prosesi gedir. Amma baxmaq lazımdır, harada qazılmalıdır, necə qazılmalıdır? Yeraltı su mənbələrinə bunun təsiri necə olacaq? Düzgün yerlər seçilməlidir. Çünki mən deyirəm, burada əsas məqsədi bu qurumlar onda görürlər ki, pul ver artezian qazım, pul ver su çəkim, pul ver nə bilim bunu edim. Yaxşı, bunu veririk, amma sonra? Bir çox hallarda səmərəsiz olur. Xərclərə nəzarət çox aşağı səviyyədədir”. “Son 15 il ərzində yaradılmış böyük su anbarlarının həcmi 470 milyon kubmetrdir” “Hesab edirəm ki, Taxtakörpü su anbarının tikintisi tarixi layihədir. Çünki bu anbarın su tutumu kifayət qədər böyükdür - 270 milyon kubmetr. Eyni zamanda, Taxtakörpü su anbarından Ceyranbatan su anbarına qədər yeni beton kanalı tikilibdir. Taxtakörpü su anbarının xüsusi əhəmiyyəti ondadır ki, Samur çayının suları orada yığılır, təbii yollarla təmizlənir və beləliklə yeni bir rezervuardan Ceyranbatan anbarına su gəlir. Çünki buna qədər Samur çayından birbaşa kanal vasitəsilə su Ceyranbatana gəlirdi. Əgər ortada bu böyük su hövzəsi olmasaydı, biz bu gün Bakını içməli su ilə təmin edə bilməzdik. Bu, birmənalıdır. Ona görə bu layihənin icrası və ümumiyyətlə Samur çayının sularının ədalətli bölüşdürülməsi üçün çox böyük işlər görülüb. Eyni zamanda, bu, Şabran, Siyəzən, Xızı rayonlarında suvarılan əkin sahələrini böyük dərəcədə artırıb, təqribən 30 min hektar suvarılmayan torpaqlara su verilir və indi o torpaqlarda geniş kənd təsərrüfatı işləri görülür”.

Dövlət başçısı digər böyük layihə kimi Ceyranbatan su anbarının yenidən qurulması və müasir təmizləyici qurğuların inşa edilməsindən də danışıb: “O vaxt layihə başa çatanda bu təmizləyici qurğu dünyanın ən böyük təmizləyici qurğusu hesab olunurdu. O vaxtdan bu günə qədər bəlkə də haradasa daha da böyük qurğular tikilib. Amma söhbət ondan getmir. Əsas məsələ odur ki, Bakı şəhərinə keyfiyyətli suyun verilməsi artıq mümkün olub. Təbii ki, mən Şəmkirçay su anbarının əhəmiyyətini də qeyd etməliyəm. Bu gün Şəmkirçay su anbarı bizim su resurslarının yığılmasında və bölüşdürülməsində xüsusi rol oynayır. Bu anbarın su tutumu 165 milyon kubmetrdir və qərb zonasının bir neçə rayonu bu imkanlardan faydalanır, orada əkin sahələri genişləndirilir.

Beləliklə, Taxtakörpü şimal zonasının, Bakının, Şəmkirçay qərb bölgəsinin su ilə təminatında mühüm rol oynayır. Bununla paralel olaraq, son illərdə cənub zonasında yerləşən Göytəpə və Tovuzçay su anbarları da inşa edilib. Son 15 il ərzində yaradılmış böyük su anbarlarının həcmi 470 milyon kubmetrdir. Mütəxəssislər bunu yaxşı bilir, bu, çox böyük rəqəmdir”. “Əgər bu gün Oğuz-Qəbələ-Bakı su kəməri olmasaydı, Bakı şəhərinin su problemləri çox kəskinləşə bilərdi” Dövlət başçısı içməli su layihəsi, həm də suvarma suyu layihələrindən də danışaraq bildirib ki, son illərdə Azərbaycanda həyata keçirilən nəhəng su layihələri vəziyyəti tamamilə müsbət tərəfə dəyişib: “Mən onların arasında Oğuz-Qəbələ-Bakı su kəmərini xüsusilə qeyd etmək istərdim. Bu kəmərin çox böyük əhəmiyyəti var. İlk növbədə, böyük həcmdə təmiz içməli su Bakı şəhərinə çatdırılır. Nəzərə alsaq ki, bizim su resurslarımızın böyük hissəsi xarici ölkələrdə formalaşır, Oğuz-Qəbələ-Bakı su kəməri sırf yerli mənbə üzərində inşa edilmiş böyük layihədir. Bu layihənin inşası demək olar ki, bizim ilk neft gəlirlərimiz əldə olunandan sonra başlamışdır.

**Ardı Səh. 6**

# İlham Əliyev: “Azərbaycanda içməli su və suvarma suyu ilə təminat 100 faiz olmalıdır”

Əvvəli-Səh-2

O vaxt mən demişdim ki, biz qara qızılı insan kapitalına çevirməliyik və Oğuz-Qəbələ-Bakı su kəməri bunun əyani sübutudur. Çünki bizim neft gəlirlərimiz 2006-cı ildən sonra ölkəyə gəlməyə başlamışdır. O vaxt Bakı-Tbilisi-Ceyhan neft kəməri istismara verildi. O zaman bizim gəlirlərimiz, əlbəttə ki, çox aşağı səviyyədə idi. Ancaq, ilk növbədə, biz bu gəlirləri məcburi köçkünlərin problemlərinin və su məsələlərinin həllinə yönəltdik. İndi mütəxəssislər yaxşı bilirlər ki, əgər bu gün Oğuz-Qəbələ-Bakı su kəməri olmasaydı, Bakı şəhərinin su problemləri çox kəskinləşə bilərdi”. “İmkan vermək olmaz ki, xərclər süni şəkildə şişirdilsin” Dövlət başçısı qeyd edib ki, su ehtiyatlarının qiymətləndirilməsində və su ehtiyatlarını artırma ehtimalının dəyərləndirilməsində və bütün digər işlərdə alimlər mütləq iştirak etməlidirlər: “Hesab edirəm ki, bütün bu işlərdə aidiyyəti qurumlarla yanaşı, ictimaiyyət nümayəndələri də iştirak etməlidir. Komissiya öz işinə ictimaiyyət nümayəndələrini də cəlb etsin. İlk növbədə, alimlər bu işlərdə fəal rol oynamalıdırlar”.

Dövlət başçısı sözügedən məsələyə mütəxəssislərlə yanaşı vətəndaş cəmiyyəti və mətbuat nümayəndələrinin də iştirakının vacib olduğunu deyib: “Bu işlərə ekologiya üzrə mütəxəssisləri mütləq cəlb edin. Biz sudan elə istifadə etməliyik ki, bunun ekoloji tarazlığa mənfi təsiri olmasın. Çünki biz tarixdən bilirik ki, bəzi ölkələrdə böyük su layihələri icra edilirdi. Amma mənbələr və su ehtiyatları düzgün təhlil edilmirdi. Ona görə indi suvarma üçün bunun yaxşı təsiri olubdur, amma ekoloji vəziyyəti gərginləşdiribdir. Ona görə mütləq ekologiya üzrə mütəxəssislər cəlb edilməlidir. Qeyri-hökumət təşkilatlarını cəlb edin. Vətəndaş cəmiyyəti nümayəndələri də bu işlərdə fəal olsunlar. Sizin bəlkə də görə bilmədiyiniz məsələləri onlar diqqətə çatdıracaqlar. Media nümayəndələrini cəlb edin. Hesab edirəm ki, geniş mətbuat konfransı keçirilməlidir. Ümumiyyətlə, bütün dövlət qurumları mətbuatla çox sıx əlaqədə olmalıdır. Görülmüş işlər haqqında müntəzəm olaraq məlumat verməlidirlər”. “Bizim bu müşavirəmiz də bir növ vətəndaşlara verilən hesabatdır”-deyən dövlət başçısı onu da deyib ki, onlardan təkliflərin verilməsi işlərin müsbət həllində öz təsirini göstərə bilər: “Eyni zamanda, vətəndaşlar bilsinlər ki, biz hansı işləri görməyi planlaşdırırıq, onlardan da təkliflər gözləyirik. Çünki əgər bu müşavirələri biz qapalı şəkildə keçirsək, heç kim bilməyəcək, onda yerlərdən təkliflər gəlməyəcək. Ona görə bu müşavirə də ictimaiyyət üçün açıq olacaq. Yerlərdən təkliflər, əlbəttə, hesab edirəm ki, işimizə kömək göstərəcək”. “Kimin haradasa yüksək vəzifədə qohumu var, onun əkin sahəsinə su verilir” Dövlət başçısı videoformatda keçirilən müşavirədə, həmçinin su təchizatı ilə bağlı şikayətlərə də bağlı danışaraq bildirib ki, bu ciddi məsələdir: “Eyni zamanda, şikayətlərlə bağlı isə onu demək istərdim ki, 12 rayondan su təchizatı ilə bağlı şikayətlər var idi. Bunu, əsasən, aran rayonları - Sabirabad, Saatlı, Kürdəmir, Ucar, İmişli, Biləsuvar rayonları təşkil edirdi. Sizin tapşırığınız əsasında onların su ilə təminatı məsələlərinə ciddi fikir verilib və məsələlər araşdırılıb”.

Dövlət başçısı qeyd edib ki, İnfrastruktur layihələri arasında içməli su və meliorasiya layihələri öz yerini tapıbdır: “Son illərdə bu sahədə də böyük işlər görüldü. Bu sahə diqqətdən kənarda qalmadı. Sadəcə olaraq, bir neçə rəqəmi ictimaiyyətin diqqətinə çatdırmaq istərdim. Regionların sosial-iqtisadi inkişafına dair birinci Dövlət Proqramının qəbul edildiyi 2004-cü ildə Azərbaycanda içməli su ilə təminat 40 faiz səviyyəsində idi. Bu gün isə bu rəqəm 70 faizə çatıbdır. Bakı şəhərində içməli suyu davamlı şəkildə alan əhalinin sayı 29 faiz idi. Bu gün bu rəqəm təxminən 82 faizə çatıbdır.”

Prezident İlham Əliyev bildirib ki, bu, doğrudan da tarixi nailiyyətdir. Biz bunu, ilk növbədə, insanların sağlamlığı, iqtisadiyyatın, kənd təsərrüfatının inkişafı üçün etmişik. Ancaq bununla bərabər, bu rəqəmlər onu göstərir ki, biz istədiyimizə tam nail ola bilməmişik. Buna görə bundan sonra içməli su layihələri, meliorasiya layihələri bizim gündəliyimizdə ən vacib məsələlər kimi duracaq. Bugünkü müşavirənin əsas məqsədi odur ki, bu sahədə buraxılmış səhvlər, mövcud çatışmazlıqlar bundan sonrakı illərdə aradan qaldırılsın, vahid idarəetmə mexanizmi işlənib təqdim edilsin və biz ardıcıl olaraq qısamüddətli, ortamüddətli və uzunmüddətli fəaliyyət planımızı icra edək. Bunun nəticəsində Azərbaycanda içməli su və suvarma suyu ilə təminat 100 faiz olmalıdır.

“Yerlərdən gələn bəzi məktublar da göstərir ki, müəyyən hallarda bu ədalət prinsipi pozulur”- deyən dövlət başçısı bu məsələyə ciddi nəzarət olunmasın tələb edib: “Kimin imkanı var, kimin təsiri var, kimin haradasa yüksək vəzifədə qohumu var, onun əkin sahəsinə su verilir, amma başqa fermer susuz qalır. Ona görə qrafiklər ədalətli olmalıdır və geniş ictimaiyyət bu işlərə cəlb edilməlidir. Əlbəttə ki, nəzarət mexanizmi olmalıdır. Mərkəzi və yerli icra orqanları birlikdə bu işlərlə məşğul olsunlar”. Xüsusilə, son vaxtlar Neftçala rayonnuda su qıtlığı ilə məsələ ilə bağlı Prezident İlham Əliyev göstəriş verərək məsələnin tez bir zamanda həll olunmasını tələb etdi: “Mütləq çalışın, tezliklə bu məsələ öz həllini tapsın. O vaxta qədər indi maşınlarla su daşınır, mənə dəqiq məlumat verərsiniz, bu, vətəndaşları təmin edir, yoxsa yox? Əgər təmin etmirsə, onda əlavə imkanlar tapmaq lazımdır ki, maşınlarla vətəndaşları təmin edə biləcək səviyyədə su daşınıb, onlara çatdırılsın”. Dövlət başçısı 2017-ci ildə bağlanan müqavilənin hələ də icra edilmədiyini deyərək bildirib ki, vaxtında məsələ ilə bağlı məlumat verməməklə işinizdə məsuliyyət hiss etməmisiniz: “Gərək, məsələ qaldıraydınız. Vəsait təmin olunmayıb, siz də məsələ qaldırmamısınız. Mən bu gün bunu eşidirəm. İndi Baş Nazirə tapşırıq verirəm ki, tez bir zamanda bunu həll edin və builki investisiya proqramından vəsait ayırın ki, bu məsələ tezliklə həll olunsun. Siz də tərəf müqabilləri ilə əlaqə saxlayın və onları indi dəvət etmək lazımdır ki, gəlib bu qiymətləndirməni aparsınlar. Çünki bilirsiniz, əgər bu bürokratiya belə davam edərsə, bu, heç bir nəticəyə gəlib çatmayacaq. Çünki kontrakt imzalanıb, vəsait ayrılmayıb. Nəyə görə ayrılmayıb? Kimsə ya istəməyib, ya da ki, istəyib kimsə verməyib, ya sonra ixtisar olunub. Belə şeylərə son qoymaq lazımdır”. Sonda dövlət başçısı bir daha bildirib ki, bu ciddi xəbərdarlıqlardan bir nəticə çıxarılmalıdır.

**RƏFİQƏ KAMALQIZI**

## Ədalət Vəliyev Birlik Partiyasının sədri ilə görüşdü



***İyul ayının 24-də Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev və Birlik Partiyasının sədri Xudadat Xudiyev arasında görüş keçirilib.***

SİA-nın məlumatına görə, görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ problemi, COVİD-19 pandemiyası, siyasi partiyaların fəaliyyəti, milli həmrəylik və digər məsələlər müzakirə olunub. Qeyd olunub ki, Ermənistan 30 ilə yaxın təcavüz siyasəti aparır və Azərbaycanın 20% torpaqlarını işğal altında saxlayır. Cari ilin iyul ayının 12-də Ermənistanın Tovuz rayonu istiqamətində törətdiyi hərbi təxribat isə onların işğal siyasətinin davamıdır. Bu hadisələr fonunda 43 siyasi partiyanın birlikdə, 4 siyasi partiyanın isə ayrı-ayrılıqda Ermənistanın hərbi təxribatını pisləməsi, ölkəmizin ərazi bütövlüyü naminə Ali Baş Komandan ətrafında sıx birləşməsini bəyan etməsi çox müsbət addım idi.

Daha sonra dünyanı bürüyən COVİD-19 pandemiyası, ölkəmizin bu sahədə apardığı işlər, ölkə Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə bir sıra beynəlxalq təşkilatlarının videokonfrans vasitəsilə keçirilmiş zirvə görüşləri barəsində fikir mübadiləsi aparılıb. X.Xudiyev ölkədə sağlam iqtidar-müxalifət münasibətlərinin formalaşması istiqamətində görülən işləri müsbət qiymətləndirib. O, Ermənistanın Azərbaycana qarşı təcavüz siyasətini qətiyyətlə pisləyib və əlavə edib ki, bütün siyasi qüvvələr ümummilli məsələlərdə hər zaman bir yerdə olmalıdır.

## Hikmət Hacıyev: “Ermənistan Azərbaycanın strateji enerji layihələrinə təhlükə yaratmağa çalışır”

*Prezidentin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Kanadanın “CTV News” televiziya kanalına müsahibə verib*

Sovet İttifaqının dağılmasından sonra Azərbaycanın Ermənistanın hərbi təcavüzündən əziyyət çəkdiyini bildirən H.Hacıyev ərazilərimizin 20 faizinin Ermənistan tərəfindən işğal olunduğunu və işğal olunmuş ərazilərimizdə etnik təmizləmənin həyata keçirildiyini diqqətə çatdırdı. ATƏT-in Minsk Qrupunun həmsədrlərinin fəaliyyətinə toxunan H.Hacıyev münaqişənin həlli istiqamətində nəzərəçarpacaq nəticələrin olmadığını və münaqişənin Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərin toxunulmazlığı, eləcə də azərbaycanlı qaçqın və məcburi köçkünlərin öz doğma yurd-yuvalarına qayıtması əsasında həllinin zəruriliyini vurğuladı. Ermənistanın Azərbaycan-Ermənistan sərhədinin Tovuz rayonu istiqamətində son hərbi təxribatına toxunan H.Hacıyev Ermənistan silahlı qüvvələrinin artileriyadan istifadə edərək Azərbaycan mövqelərinə atəş açdığını və hərbçilərimizin




həlak olduğunu, habelə məqsədyönlü şəkildə Azərbaycanın yaşayış məntəqələrini və mülki insanları hədəfə aldığını söyləyib. Prezidentin köməkçisi Ermənistanın bu hücumu törətməkdə məqsədinin həmin ərazidən keçən Şərq-Qərb dəhlizi və Azərbaycanın neft-qaz kəmərlərinə təhlükə yaratmaq olduğunu bildirib. Azərbaycanın sərhəd zonasında hərbi məqsədlərinin olmadığını bildirən H.Hacıyev ölkəmizin münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq həllinə çalışdığını qeyd edib.

Metsamor Atom Elektrik Stansiyasının (AES) fəaliyyətinə toxunan H.Hacıyev sözügedən stansiyanın dünyada Çernobıl texnologiyasının istifadə olunduğu yeganə AES olduğunu bildirdi. Köhnəlmiş texnologiyaların istifadə olunduğu AES-in region üçün təhlükə olduğunu söyləyən H.Hacıyev Metsomorun radioaktiv maddələrin qaçaqmalçılığı üçün bir vasitəyə çevrildiyini xüsusilə vurğuladı. Eyni zamanda, Kanadada yaşayan azərbaycanlılara və Kanadanın hüquq-mühafizə orqanlarına müraciət edərək erməni lobbi qruplarının Los-Anceles, Paris və Brüsseldə azərbaycanlılara hücum etdiyini və erməni terror təşkilatlarının azərbaycanlılara hücum edə biləcəyindən onları ayıq olmağa çağırdı. Xəbər ilə aşağıdakı keçid vasitəsilə tanış olmaq mümkündür: https://www.ctvnews.ca/video?clipId=2001162

# Mehriban Əliyeva: İnsan haqlarının müdafiəsini özlərinin missiyası elan edən "Freedom House", "Amnesty International" və "Human Rights Watch" təşkilatlarını törədilmiş hadisələrə ədalətli qiymət verməyə çağırıram

***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Amerikanın Los-Anceles şəhərində və bəzi Avropa ölkələrinin paytaxtlarında yaxın günlərdə baş vermiş hadisələrlə bağlı həmvətənlərimizə müraciət edib. AZƏRTAC müraciəti təqdim edir.***

Əziz həmvətənlər!

Amerikanın Los-Anceles şəhərində və bəzi Avropa ölkələrinin paytaxtlarında yaxın günlərdə baş vermiş hadisələr milyonlarla azərbaycanlı kimi, məni də dərindən hiddətləndirib.

Azərbaycanlıların öz Vətənini dəstəkləmək üçün müvafiq dövlət orqanları ilə əvvəlcədən razılaşdırılmış dinc, vətənpərvərlik aksiyaları erməni diasporunun nümayəndələri tərəfindən fiziki zorakılıq, aqressiya və qeyri-insani nifrət hissi ilə üzləşib.

Yaxşı hazırlıq və təlim keçmiş təhrikçilər sayca xeyli üstün olmalarından istifadə edib dinc nümayişçilərə hücum çəkərək onlara xəsarət yetiriblər. Bir sıra hallarda aqressiv əhval-ruhiyyəli erməni qrupları həmin vaxt azlıqda qaldığına görə azğınlaşmış kütləyə müqavimət göstərə bilməyən azərbaycanlılara hücum ediblər.

Onilliklər boyu aşılanan nifrət və azərbaycanofobiya ideologiyası öz "eybəcər bəhrəsini" verir - ermənilərin bir qismi dinc azərbaycanlı nümayişçilərə dünya paytaxtlarının mərkəzində daş atır, digərləri Azərbaycan vətəndaşlarının evlərinə ağır artilleriya silahlarından atəş açırlar.

Tarixdə Azərbaycan xalqına qarşı bu cür cinayətlər törədilməsi nümunələri çox olub.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərinin dinc azərbaycanlı əhalisinin Ermənistan silahlı qüvvələri tərəfindən kütləvi şəkildə məhv edilməsini xatırlamaq kifayətdir. Bu faciəli hadisələr 10-dan çox dövlət tərəfindən soyqırımı kimi tanınıb və beynəlxalq təşkilatlar səviyyəsində pislənib.

O qanlı gecədə təpədən dırnağa qədər silahlanmış erməni döyüşçülər xüsusi qəddarlıqla 613 nəfəri qətlə yetirib, 421 dinc sakin işgəncələrə və təhqirlərə məruz qalıb, 1275 nəfər itkin düşüb və ya girov götürülüb, şəhər özü isə tamamilə yandırılıb.

Mindən çox dinc vətəndaş odlu silah yaraları nəticəsində şikəst olub. Öldürülənlər arasında 106 qadın, 63 uşaq, 70 ahıl şəxs olub.

Səkkiz ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib. 56 nəfər diri-diri yandırılıb.

İki yaşlı Zəhra Quliyevanın erməni təcavüzkarlar tərəfindən qətlə yetirilməsini də qeyd etməmək olmaz. Zəhra 2017-ci il iyulun 4-də Füzuli rayonunun Alxanlı kəndinin iriçaplı silahlardan atəşə tutulması nəticəsində nənəsi ilə birlikdə həlak olub. Başqa bir misal. 2020-ci il iyulun 14-də Tovuz rayonunun 76 yaşlı dinc sakini Əziz Əzizov erməni silahlı qüvvələri tərəfindən mülki obyektlərin artilleriya atəşinə tutulması nəticəsində həlak olub.



Erməni təbliğat-təşviqat şəbəkəsi 30 ildən artıqdır ki, bu amansız cinayətlərə haqq qazandırmağa çalışaraq çoxsaylı diasporunun köməyi ilə məkrli anti-Azərbaycan təbliğatı aparır. Sirr deyil ki, ölkəmizə qarşı böhtan kampaniyalarının mütləq əksəriyyəti də məhz erməni diasporu tərəfindən inspirasiya edilir və maliyyələşdirilir. Nifrət və aqressiya dərəcəsi o qədər artıb ki, bu diasporun bəzi nümayəndələri özlərini demokratiyanın beşiyi hesab edən Qərb ölkələrinin paytaxtlarında qanunsuzluq və hərc-mərclik törədirlər.

Avropa siyasətinin mərkəzi sayılan Brüsseldə Azərbaycan Respublikası səfirliyinin daşa basılmasını, dinc nümayişçilərə xəsarət yetirilməsini başqa necə izah etmək olar?

Los-Ancelesdən, Brüsseldən və digər şəhərlərdən çəkilmiş, düşmənlərimizin həqiqi simasını göstərən zorakılıq və vandalizm kadrları həm haqlı olaraq hiddət, həm də əsaslı suallar doğurur.

Həmin ölkələrin hüquq-mühafizə orqanları azğınlaşmış bandit qruplaşmalarının bu cür hərc-mərclik törətməsinə nə üçün imkan verirlər? Bu cinayətlərə necə göz yummaq olar?

Mən bütün dünyada yaşayan milyonlarla azərbaycanlı adından ABŞ-ın, Belçikanın və digər dövlətlərin hüquq-mühafizə orqanlarını bu hadisələri hərtərəfli təhqiq etməyə, onlara müvafiq hüquqi qiymət verməyə və bütün təqsirkarları məsuliyyətə cəlb etməyə çağırıram, çünki qanunsuz əməllər cəzalandırılmalıdır.

Mən, həmçinin çoxsaylı qeyri-hökumət təşkilatlarını, o cümlədən insan haqlarının müdafiəsini özlərinin missiyası elan edən "Freedom House", "Amnesty International" və "Human Rights Watch" təşkilatlarını törədilmiş hadisələrə ədalətli qiymət verməyə çağırıram. Lakin nədənsə biz hələ onların səslərini eşitmirik. Ümidvaram ki, bu qurumlar yetərincə prinsipiallıq nümayiş etdirərək ikili standartlar siyasətindən əl çəkəcək və faktlara əsaslanan bəyanatlarla çıxış edəcəklər.

Əziz qardaşlar və bacılar!

Baş verənlər Ermənistanın işğalçı siyasətinin dinc Azərbaycan əhalisi üçün nə qədər təhlükəli olmasını dünya birliyinə əyani şəkildə nümayiş etdirir. Belə hallarda bizim borcumuz bu həqiqəti dünya birliyinə çatdırmaqdır.

Bizim vəzifəmiz birləşmək və son zorakılıq aktlarının ədalətlə təhqiq edilməsini, təqsirkarların məsuliyyətə cəlb olunmasını bütün tribunalardan təkidlə tələb etməkdir.

Hər bir səsin əhəmiyyəti var!

Mən bütün dünya azərbaycanlılarını birgə hərəkət etməyə, azğınlaşmış düşmənə layiqli cavab vermək üçün bizim diasporun bütün potensialını birləşdirməyə çağırıram. Bununla belə, unutmamalıyıq ki, qeyri-insani nifrət hissini əsas götürən vəhşilərə və banditlərə bənzəmək olmaz. Bizim mübarizəmiz yalnız hüquq müstəvisi çərçivəsində aparılmalıdır.

Bu günlərdə bütün dünya şəhərlərində öz səsini ucaltmış və Azərbaycan bayrağını qaldırmış hər kəsə təşəkkür edirəm. Qoy, heç kim şübhə etməsin ki, heç bir provokasiya bizi haqq yolundan dönməyə məcbur edə bilməz. Biz milyonlarlayıq, bizim bir məqsədimiz var - Vətəni müdafiə etmək, onun ərazi bütövlüyünü və tarixi həqiqəti bərpa etmək. Ona görə ki, Qarabağ Azərbaycandır və nida işarəsi!

# Milli Məclisinin Sədri Sahibə Qafarova Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov ilə görüşüb

***İyulun 24-də Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarova Rusiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikov ilə görüşüb. Bu barədə AZƏRTAC-a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.***

Səfir Mixail Boçarnikov görüş imkanı yaradıldığı üçün Milli Məclis Sədrinə minnətdarlığını bildirib. Rusiyalı səfir əvvəlcə Sahibə Qafarovanı Milli Məclisin Sədri seçilməsi münasibətilə təbrik edib. Azərbaycan-Rusiya əlaqələrinin möhkəm dostluğa əsaslandığını qeyd edən səfir iki ölkə arasında olan münasibətlərin müxtəlif sahələri əhatə etməsindən məmnunluğunu vurğulayıb.



Sahibə Qafarova mövcud münasibətlərin parlamentlərarası əməkdaşlığın gələcək perspektivi üçün çox yaxşı zəmin yaratdığını qeyd edib, humanitar sahədə əməkdaşlığın vacibliyini vurğulayıb.

Ermənistanın Azərbaycanla dövlət sərhədinin Tovuz rayonu istiqamətində iyulun 12-dən etibarən yaratdığı vəziyyətə xüsusilə toxunan Milli Məclisin Sədri bildirib ki, bir çox beynəlxalq qurumlar və təşkilatlar Ermənistan tərəfindən törədilən bu təxribatı pisləyib.

Milli Məclisin sədri Ermənistan tərəfindən törədilən təxribata etiraz olaraq son günlərdə dünyanın müxtəlif ölkələrində dinc aksiyalar keçirən azərbaycanlılara qarşı ermənilər tərəfindən hücumların təşkil edilməsini kəskin şəkildə qınayıb. Səfir M.Boçarnikov ATƏT-in Minsk qrupunun üzvlərindən biri kimi Rusiyanın problemin sülh yolu ilə həll edilməsində maksimum səy göstərdiyini bir daha qeyd edib.

Görüşün sonunda rusiyalı diplomat Rusiya Federasiyası Federal Şurasının Federal Məclisinin sədri Valentina Matviyenkonun dəvətini xatırladaraq, ən qısa zamanda Milli Məclis Sədrini Moskvada gözlədiklərini bildirib. Sahibə Qafarova, öz növbəsində COVID-19 pandemiyası səbəbindən hazırda bütün səfərlərin vaxtının dəyişdirilməsindən təəssüfləndiyini qeyd edərək, pandemiya bitdikdən sonra ilk səfərlərdən birinin məhz Rusiya Federasiyasına ediləcəyini vurğulayıb.

# Sosial dəstək tədbirləri 5 milyona yaxın insanı əhatə edib

Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq ölkəmizdə pandemiya dövründə reallaşdırılan genişmiqyaslı sosial dəstək paketi 5 milyona yaxın insanı əhatə edir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən SİA-ya verilən məlumata əsasən, bu paket çərçivəsində dövlət və özəl sektorda muzdla çalışan 1 milyon 665 min (o cümlədən özəl sektorda 751,3 min) işçinin iş yerlərinin və əməkhaqqı gəlirlərinin qorunması, 2 milyon vətəndaşa sosial təminat növləri (pensiya, təqaüd, müavinət) üzrə ödənişlərin davamlılığı təmin edilib.

# Ermənistan xəyal qırıqlığına düçar oldu

## *Milli Məclisin Müdafiə, Təhlükəsizlik və Korrupsiyaya qarşı mübarizə komitəsinin sədri Ziyafət Əsgərov*



***Məlum olduğu kimi , bu il iyul ayının 10-da Prezident İlham Əliyevin təşəbbüsü ilə BMT Baş Assembleyasının 31-ci sessiyası çağırıldı. Bu sessiyanın çağırılmasında Prezidentimizin məqsədi pandemiya dövründə beynəlxalq ictimaiyyət qarşısında duran bir sıra mühüm məsələlərin aydınlaşdırılması, Covid-19-la mübarizədə vahid yanaşmanın tətbiqinə, ölkələrin özlərinə qapanmamasına, inkişaf etmiş ölkələrin ağır vəziyyətdə olan ölkələrə kömək göstərilməsinə nail olmaqdır.***

Azərbaycan Prezidentinin bu nəcib təşəbbüsünə qarşı yeganə olaraq Ermənistanın çıxış etməsi isə bu işğalçı dövlətin faşist mahiyyətini bir daha ortaya qoydu. Ermənistanın belə bir təşəbbüsün əleyhinə çıxış etməsi ağılsızlığın, qeyri-rasional düşüncənin, Azərbaycanofobiya xəstəliyinin və xalqımıza qarşı nifrətin təzahürüdür. Əslində düşmənin belə mənfur niyyətinə rəğmən hərbi təxribat törətməsi təəccüblü deyil. Əgər fikir vermisinizsə, nə vaxt ki, Azərbaycan yeniyeni beynəlxalq uğurlara imza atır, ona beynəlxalq dəstək artır, Ermənistan istər Qarabağda, istərsə də Azərbaycan-Ermənistan sərhədində hərbi təxribatlar törədir. Çünki düşmən Azərbaycanın beynəlalq səviyyədə diplomatik qələbələrini həzm edə bilmir.

Fikrimcə, iyulun 12-15-də Tovuz istiqamətində baş verən hadisələrin səbəblərindən biri məhz bu idi. Digər tərəfdən, artıq Ermənistanda daxili-siyasi çəkişmələr pik həddinə çatıb, üstəgəl ölkədə sosial iqtisadi vəziyyət olduqca bərbad vəziyyətdədir. Baş Nazirin vəd etdiyi "qızıl dağlar" siyasəti tam iflasa uğrayıb. Eyni zamanda, hökumət koronavirusla mübarizədə aciz qaldığına görə daxili təzyiq və qınaqla üz-üzə qalıb. Buna görə də Ermənistan iqtidarı sərhəddə hərbi təxribatlar törədərək diqqəti daxili problem və ziddiyyətlərdən yayındırmaq yolunu tutub. Bu Ermənilərin köhnə oyunlarından biridir. Sual olunur: Niyə Ermənistan bu dəfə işğal etdiyi əraziləri yox, Azərbaycan-Ermənistan dövlət sərhəddininin Tovuz istiqamətini hədəf seçdi. Fikrimcə, ona görə ki, beynəlxalq birliyin tam əksəriyyəti və aparıcı beynəlxalq təşkilatlar işğal olunmuş Dağlıq Qarabağı birmənalı olaraq Azərbaycanın qanuni ərazisi kimi tanıyırlar. Ona görə də burada hərbi təxribat törədib Azərbaycanın boynuna yıxmaq inandırıcı görünməyəcəkdi. Əks halda, Azərbaycan öz ərazisi olan Dağlıq Qarabağ və ona bitişik rayonlarda niyə təxribat törətməlidir ki? Artıq dünya birliyi əvvəlki kimi erməni nağıllarına inanmır. Eyni zamanda ölkəmizin işğal olunmuş ərazilərində qanunsuz cinayətkar dəstələrə və terrorçulara qarşı mübarizə aparmaq Azərbaycanın tam qanuni haqqıdır. Belə olan vəziyyətdə Ermənistan istiqaməti beynəlxalq neft və qaz kəmərlərinə yaxın dövlət sərhəddinə yönəldir və KTMT-ı bu avantüraya cəlb etmək üçün çox çirkin bir oyuna əl atır . Lakin, dərin xəyal qırıqlığına düçar olan Ermənistan bu təşkilatdan heç bir dəstək ala bilmədi. Əvvəla, KTMT-in bütün üzvləriylə (Ermənistan istisna olmaqla) Azərbaycanın çox mehriban və dostluq əlaqələri mövcuddur. İkincisi, KTMT hansı niyyətlə Ermənistanın onu öz hərbi intriqalarına cəlb etmək istəyini yaxşı başa düşür. Və bu təşkilatın üzvləri çox yaxşı bilirlər ki, Ermənistanla dövlət sərhəddində Azərbaycanın hər hansı bir hərbi məqsədi yoxdur. Yeri gəlmişkən, bir məsələni də qeyd etmək istərdim. Bu hərbi təxribatla Ermənistan bir daha təsdiq etdi ki, bu münaqişənin tərəfləri seperatçı rejim yox məhz elə Ermənistan və Azərbaycandır.

Tovuzdakı vəziyyətlə əlaqədar iyulun 12-də ölkə Prezidenti cənab İlham Əliyev Təhlükəsizlil Şurasının iclasını çağırmış və bildirmişdir ki, iyulun 12-də Ermənistan Silahlı Qüvvələri Azərbaycan mövqelərinə artilleriya atəşi ilə zərbə endirmişlər. Bu gözlənilməz zərbə nəticəsində hərbçilərimiz həlak olmuş, yaralanmışlar. Amma Azərbaycan Silahlı Qüvvələri tərəfindən hərbçilərimizin intiqamı alınmış və düşmənə elə bir zərbə endirilmişdir ki, uzun illər bundan sonra da yaddam çıxarmayacaqlar.

Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasda cənab Prezident qeyd etmişdir ki düşmənin onlarca hərbçisi məhv edilmiş, sərhədboyu dayaq məntəqələrinin böyük hissəsi məhv edilmişdir. Bu əməliyyat, son günlər baş vermiş toqquşma bizim şanlı qələbəmizdir. Bu qələbənin Azərbaycan Ordusunun şanlı tarixində öz yeri olacaqdır. Aprel döyüşlərində olduğu kimi, bu dəfə də mənfur düşmən ən çirkin əməllərə əl atmış, kəndlərimizi atəşə tutmuş, 76 yaşlı kənd ağsaqqalını qətlə yetirmiş və beləliklə də 1949-cu il Cenevrə Konvensiyasının tələblərini cinayətkarcasına pozmuşdur. Mülki əhaliyə qarşı törədilən cinayətlər bir daha göstərdi ki, Ermənistan terrorçu və faşist dövlətidir.

İyulun 14-də minlərlə insan paytaxtımızın müxtəlif ərazilərində Orduya, Ali Baş Komandana, dövlətə dəstək nümayiş etdirərək küçə yürüşləri və mitinqlər keçirmişlər. Belə tədbirlər Azərbaycanın digər yerlərində də baş tutmuşdur. Bu onu göstərir ki, Azərbaycan xalqının döyüş ruhu çox yüksəkdir. Xalq-Ordu vəhdəti sarsılmazdır. Bununla belə AXC-nin bir qrup təxribatçı gəncləri vəziyyətdən başqa cür yararlanmağa çalışmışdır. Onlar polisin qanuni tələblərinə məhəl qoymadan Milli Məclisin binasına soxulmuş və ona zərər vurmuşlar. Təəssüf ki, AXC -nin"başbilənləri" və onların əlaltıları hələ də 90-cı illərin əvvəlinin abu-havası və "bulanıq suda balıq tutmaq" sevdası ilə yaşayırlar. Qəti əminliklə deyə bilərik ki, onlar və 5-ci kolonun ünsürləri dəqiq müəyyənləşdiriləcək və hüquq müstəvisində layiq olduqları cəzanı alacaqlar.

Ermənistanın təcavüzü ilə əlaqədar siyasi partiyaların milli həmrəyliyə dair bəyanatı da yüksək qiymətləndirilməlidir. Bəyanatda deyilir:"Biz Azərbaycanın siyasi partiyaları Ali Baş Komandan,Prezident I.Əliyevin ölkəmizin ərazi bütövlüyünün və əhalinin təhlükəsizliyinin təmin olunması,hər cür erməni fitnəsi və təxribatlarının qarşısının alınması istiqamətində həyata keçirdiyi siyasəti qətiyyətlə dəstəkləyir,onun ətrafında sıx birləşdiyimizi bəyan edirik.Xalqımızı həmrəyliyə,vətənimizə qarşı uzanan qanlı erməni əllərini qətiyyətlə kəsib atmağa hər an hazır olmağa səsləyirik.Şərəfli tarixi olan Ordumuzla qürur duyur,onunla bir olmağımızı ifadə edirik. Möhtərəm Prezidentimizi vəAli Baş Komandanımızı əmin edirik ki,hər birimiz vətənimizin şərəfi və namusu yolunda onun istənilən tapşırığını hər an yerinə yetirməyə hazır olan müsəlləh əsgərik". Siyasi partiyaların belə bir gündə birlik və bərabərlik nümayiş etdirmələri xalqın, dövlətin, Ali Baş Komandanın yanında olmaları hamıya nümunə olmalı və təqdir edilməlidir.

O ki qaldı Ermənistanın son hərbi təxribatına beynəlxalq birliyin münasibətinə, təəssüflə qeyd etməliyəm ki, bu dəfə də BMT, Aİ, ATƏT-in fəaliyyətdə olan sədri eləcə də ATƏT-in Minsk Qrupunun həmsədrləri neytral və ümumi bəyanatlar verməklə kifayətləndilər. Lakin Türk Şurası, Qoşulmama Hərəkatı, TÜRKPA, GUAM, İƏT və Türkiyə başda olmaqla bir sıra dövlətlər Ermənistanın hərbi təxribatını qətiyyətlə pisləmiş, Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və sərhəd toxunulmazlığını birmənalı olaraq dəstəkləmiş, problemin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasını bildirmişlər. Fürsətdən istifadə edib Azərbaycanın haqq işini müdafiə edən hər bir beynəlxalq təşkilata və dövlətə dərin minnətdarlığımızı və təşəkkürümüzü bildiririk.

Dövlətimizin əldə etdiyi təhlükəsizlik, əmin-amanlıq, sabitlik, inkişaf və sosial rifah müstəqillik dövrümüzün ən böyük nailiyyətidir. Biz xalqımızın əyilməz iradəsi, uzun illərin əziyyəti və zəhməti, şəhidlərimizin qanı bahasına qazandığımız uğurları hər vəchlə qorumalı, inkişaf etdirməli və istənilən pozuculuğa qarşı öz vətəndaş mövqeyimizi bildirməliyik.

Buna görə də istər pandemiya ilə mübarizədə, istərsə də cəbhədə düşmənə qarşı milli birlik, həmrəylik, güclü milli iradə nümayiş etdirməliyik. Hər birimiz məsuliyyətlə davranmalı, nizam-intizama riayət etməli, cəmiyyətimizdəki mövcud təhlükəsizliyi və sabitliyi qoruyub saxlamaq üçün bütün səylərimizi səfərbər etməliyik.

# Adil Əliyev: "Mən, sapı özümüzdən olan baltaların, öz dövlətinə, millətinə qarşı düşmənçəliyini başa düşmürəm"



***"Dostlar, ölkəmizə qarşı baş verən erməni təxribatına səssiz qalmayan və dünyanın müxtəlif ölkələrində bu təcavüzə diqqət çəkən həmvətənlilərimizlə fəxr etmək mümkün deyil. Eyni zamanda, Brüsseldə, Los-Ancelesdə erməni vandalları tərəfindən həmyerlilərimiz hücumlara məruz qalır. Artıq bütün dünya görür ki, Ermənistan dövləti şovinizmi dövlət siyasəti səviyyəsində aparır".***

SİA xəbər verir ki, bu fikirləri Milli Məclisin vitse-spikeri Adil Əliyev Facebook sosial şəbəkəsində yazıb. O qeyd edib ki, habelə baş verənlərə görə həm ABŞ-da, həmdə Belçikada hadisələri törədən ermənilər saxlanılmış, onların törətdikləri cinayətlərə görə ədalətli cəza alacaqlarını güman edirəm. SİTAT: "Xəsarət alan həmvətənlilərimizə Allahdan şəfa diləyirəm".

Vitse-spiker bu kimi həssas məsələdə Avropada yaşayan və anti-Azərbaycan xarakterli çıxışlar edən dırnaqararsı "siyasi mühacirlərin" xəyanətkar fəaliyyətlərinə də toxunub və bildirib ki, onlar düşmənlərlə əlbir olaraq dövlətçiliyimizə, milli maraqlarımıza qarşı çıxışlar edir, bu vasitə ilə riyakarlıqlarını nümayiş etdirirlər: "Dostlar, fürsətdən istifadə edib, bir məsələyə münasibət bildirmək istəyirəm. Aydın məsələdir ki, Azərbaycanımızı, inkişaf etmiş, güclü dövlət kimi görmək istəməyən dövlətlər var, keçmişdə də olub, gələcəkdə də olacaq. Ancaq mən, sapı özümüzdən olan baltaların, öz dövlətinə, millətinə qarşı düşmənçəliyini başa düşmürəm. Hələ ki, bu satqın, başı boş, vətəndaşlarımız düşmən dəyirmanına su tökəcək, öz dövlətinə, millətinə, ölkəsinə qarşı kampaniya aparacaq, biz belə təklənib, hücumlara məruz qalacağıq. Satqınlara, söyüş söyənlərə AR OLSUN".

Xatırladaq ki, Avropdakı bəzi qruplar yenidən fəallaşaraq, Azərbaycanın haqq-ədalət səsini ucaldanlara qarşı təhqir və söyüşlər yağdırmağa başlayıblar.

# Xarici mətbuat: "Münaqişə fonunda Ermənistanda siyasi qütbləşmə gedir"

***"Karnegi" Beynəlxalq Sülhə Töhfə Təşkilatı Azərbaycan və Ermənistan arasında Tovuz istiqamətində baş verən hadisələrlə bağlı məqalə yayınlayıb. SİA xəbər verir ki, təşkilatın Orta Asiya və Cənubi Qafqaz regionu, Rusiya və Avrasiya üzrə təmsilçisi Pol Stronski prosesləri şərh edib.***



Keçmiş Sovet dönəmindən bəri Azərbaycan və Ermənistan arasında münaqişənin olduğu, Dağlıq Qarabağ istiqamətində atəşkəsin tez-tez pozulduğu və bundan da mülki əhalinin ziyan gördüyü, Azərbaycanın uzun illər öz ərazi bütövlüyü və suverenliyi uğrunda mübarizə apardığı bildirilib. Sərhəd xəttində baş verən hadisələr zamanı 1 yaşlı azərbaycanlı mülki vətəndaşın şəhid olduğu vurğulanıb. Bu hadisələr fonunda Ermənistanda siyasi qütbləşmənin getdiyi bildirilib. Nikol Paşinyanın koronavirus pandemiyası ilə bağlı dərinləşən ölkədaxili böhranda təzyiqlərə məruz qaldığı, həmçinin Baş Nazir Paşinyanın geniş şəkildə ölkə qanunlarını lehinə istifadə etməsinin cəmiyyətdə etirazlara səbəb olacağı və bunun havadakı fırtınanın xəbərçisi olduğu əlavə edilib. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın isə Türkiyənin müttəfiqi olan Azərbaycana açıq şəkildə dəstək verdiyi əks etdirilib. Rusiyanın münqişə ilə əlaqədar Xarici İşlər Nazirliyinin və onun rəhbəri Sergey Lavrovun hər iki tərəflə danışıqlar apardığı, lakin, ABŞ-ın və ölkənin yüksək rütbəli vəzifəlilərinin münaqişədə səssiz qaldığı qeyd edilib.

***Nigar Məmmədova***

# Əli Əhmədov: “Azərbaycan xalqı addım-addım qələbəyə doğru irəliləyir”



“Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin indiyə kimi tənzimlənməməsi Ermənistanın ardıcıl olaraq davam edən təxribatları üçün “münbit” zəmin yaradıb. İyulun 12-də dövlət sərhəddinin Tovuz rayonu istiqamətində törədilən təxribat nəticəsində baş verən qanlı toqquşmalar da bunun nümunəsi sayıla bilər”. SİA-nın verdiyi məlumata görə, bu fikirləri Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov dünən Yeni Azərbaycan Partiyasının İcra Katibliyində “İyul döyüşləri: Qəhrəmanlıq və vətənpərvərlik dərsləri” mövzusunda keçirilən videokonfransda deyib.

Əli Əhmədov bildirib ki, ayrı-ayrı beynəlxalq təşkilatlar, xüsusilə ATƏT-in Minsk qrupunun həmsədrləri müxtəlif dövrlərdə erməni təxribatı nəticəsində baş verən qanlı toqquşmalarla əlaqədar ədalətli mövqe ortaya qoymaq əvəzinə tarazlı, balanslaşdırılmış bəyanatlar səsləndirməyə üstünlük verirlər. Həqiqət isə budur ki, bu cür bəyanatlar əslində mahiyyət etibarilə təcavüzkar Ermənistanı gizli yollarla dəstəklənməsi effektini yaradır. Bu da onları növbəti təxribatlar törətməyə həvəsləndirir. Erməni tərəfinin bu təxribatları törətməkdə məqsədi münaqişənin ədalətli həllini uzatmaqdır.

“Ermənistan bu təxribatı törətməklə münaqişənin coğrafiyasını və onun iştirakçılarının sayını artırmaq niyyətini ortaya qoymuşdu. Başqa bir niyyətləri də o idi ki, Aprel döyüşlərindən sonra yaşadıqları uğursuzluq və gücsüzlük sindromundan xilas olsunlar. Amma ordumuzun düşmənə sarsıdıcı zərbələri nəinki onların bu sindromdan xilas olmasına kömək etmədi, əksinə bu zərbələrin təsirindən yəqin ki, təxribat törətməklərindən ciddi şəkildə peşman olublar. Döyüşlər nəticəsində bir daha sübut olundu ki, ordumuz bütün parametrlər üzrə erməni ordusundan xeyli üstündür. Bu, erməni tərəfinə növbəti dəfə dərs oldu. Digər tərəfdən, döyüşlər bütün dünyaya Azərbaycan və Ermənistanın hansı döyüş potensialına malik olduğunu göstərdi”, -deyə YAP Sədrinin müavini vurğulayıb.

Əli Əhmədov qeyd edib ki, Azərbaycan xalqı addım-addım qələbəyə doğru irəliləyir və biz Prezident İlham Əliyevin rəhbərliyi ilə bu qələbəyə nail olacağıq.

# Azərbaycanda koronavirusdan 573 nəfər sağaldı

Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 332 yeni yoluxma faktı qeydə alınıb, 573 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan SİA-ya verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 9 nəfər vəfat edib.




İndiyədək ölkədə ümumilikdə 29 312 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 21 547 nəfər müalicə olunaraq sağalıb, 400 nəfər vəfat edib, 7 365 xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 9 037, ötən müddət ərzində isə ümumilikdə 667 819 test aparılıb.

# Vitali Balasanyan: “Paşinyan mərhələli bədnam həll variantına qayıtdı”

Dağlıq Qarabağ döyüşlərinin qəhrəmanı sayılan, general-mayor Vitali Balasanyan dünən Ermənistanın yeni Milli Təhlükəsizlik Strategiyasına müraciət edib. SİA xəbər verir ki, bu barədə “Hraparak” qəzeti yazır.



Qəzet Vitali Balasanyanın fikirlərini dərc edib. “Rəsmi İrəvanın Dağlıq Qarabağ məsələsində yürütdüyü siyasətlə bağlı narahatlığım öz təsdiqini tapdı. Strateji əhəmiyyətə malik sənəddə Dağlıq Qarabağ bir ərazi, Dağlıq Qarabağ erməniləri bir əhali olaraq qeyd olunur... 2007-ci ildə qəbul edilmiş strategiyada Dağlıq Qarabağın bir respublika olduğu açıqlansa da, yeni strategiyada Paşinyanın geri döndüyünü sübut edən “respublika” sözlərindən imtina edildi və onun bədnam mərhələli həll variantına qayıtdığı təsdiqləndi”, deyə Vitali Balasanyan bildirib.

# YAP İcra Katibliyində “İyul döyüşləri: Qəhrəmanlıq və vətənpərvərlik dərsləri” mövzusunda videokonfrans keçirilib



İyulun 24-də Yeni Azərbaycan Partiyasının (YAP) İcra Katibliyində “İyul döyüşləri: Qəhrəmanlıq və vətənpərvərlik dərsləri” mövzusunda videokonfrans keçirilib. YAP-ın mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, videokonfransda çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov bildirib ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin indiyə kimi tənzimlənməməsi Ermənistanın ardıcıl olaraq davam edən təxribatları üçün “münbit” zəmin yaradıb. Onun sözlərinə görə, iyulun 12-də dövlət sərhədinin Tovuz rayonu istiqamətində törədilən təxribat nəticəsində baş verən qanlı toqquşmalar da bunun nümunəsi sayıla bilər: “Təəssüf ki, ayrı-ayrı beynəlxalq təşkilatlar, xüsusilə ATƏT-in Minsk qrupunun həmsədrləri müxtəlif dövrlərdə erməni təxribatı nəticəsində baş verən qanlı toqquşmalarla əlaqədar ədalətli mövqe ortaya qoymaq əvəzinə tarazlı, balanslaşdırılmış bəyanatlar səsləndirməyə üstünlük verirlər. Həqiqət isə budur ki, bu cür bəyanatlar əslində mahiyyət etibarilə təcavüzkar Ermənistanı gizli yollarla dəstəklənməsi effektini yaradır. Bu da onları növbəti təxribatlar törətməyə həvəsləndirir. Erməni tərəfinin bu təxribatları törətməkdə məqsədi münaqişənin ədalətli həllini uzatmaqdır”.

Əli Əhmədov qeyd edib ki, Ermənistan bu təxribatı törətməklə münaqişənin coğrafiyasını və onun iştirakçılarının sayını artırmaq niyyətini ortaya qoymuşdu. Başqa bir niyyətləri də o idi ki, Aprel döyüşlərindən sonra yaşadıqları uğursuzluq və gücsüzlük sindromundan xilas olsunlar. Amma ordumuzun düşmənə sarsıdıcı zərbələri nəinki onların bu sindromdan xilas olmasına kömək etmədi, əksinə bu zərbələrin təsirindən yəqin ki, təxribat törətməklərindən ciddi şəkildə peşman olublar.

Baş verən hadisənin nəticələrindən danışan YAP Sədrinin müavini qeyd edib ki, döyüşlər nəticəsində bir daha sübut olundu ki, ordumuz bütün parametrlər üzrə erməni ordusundan xeyli üstündür. Bu, erməni tərəfinə növbəti dəfə dərs oldu. Digər tərəfdən, döyüşlər bütün dünyaya Azərbaycan və Ermənistanın hansı döyüş potensialına malik olduğunu göstərdi.

“İkinci nəticə siyasi-diplomatik müstəvidə özünü göstərdi. Məlumdur ki, Ermənistan xislətinə uyğun olaraq bu hadisələrə görə günahı Azərbaycanın üzərinə yıxmağa çalışdı. Amma tam iflasa uğradılar, ermənilər kənar qüvvələrin onlara dəstək verəcəklərini gözləsələr də, bu, baş vermədi. Azərbaycan isə beynəlxalq mövqelərini daha da möhkəmləndirdi. Bütün ciddi beynəlxalq təşkilatlar, ayrı-ayrı dövlətlər ölkəmizin ədalətli mövqeyini dəstəklədilər. Bir daha bu münaqişənin ədalətli yolla həll olunması çağırışları səsləndirildi. Bu da Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasətin nəticəsidir”.

Əli Əhmədovun fikrincə, baş verən hadisələrdən çıxan bir nəticə də Azərbaycan xalqının hərbi-vətənpərvərlik ruhunun yüksəlməsi ilə əlaqədardır: “Tovuz istiqamətində gedən döyüşlər xalqımızın, xüsusilə gənclərimizin hərbi vətənpərvərlik ruhunu daha da yüksəltdi. Vətəndaşlarımız Azərbaycan torpaqlarının işğaldan azad olunması uğrunda canlarından keçməyə hazır olduqlarını nümayiş etdirdilər. İyulun 14-dən 15-ə keçən gecə Bakıda və digər bölgələrdə keçirilən aksiyalar, yürüşlər bu həqiqəti ortaya qoydu. Azərbaycan gəncliyi ordu, dövlət və Prezident İlham Əliyevlə bir olduğunu nümayiş etdirdi. Bu fakt ordunun döyüş ruhunu artırmağa xidmət edən ən mühüm faktlardan biri kimi qeyd olunmalıdır. Ordumuzun şücaəti, düşmənə endirilən sarsıdıcı zərbələr bizi addım-addım torpaqlarımızın işğaldan azad olunmasına yaxınlaşdırır. Biz arzu edirik ki, ərazi bütövlüyümüzün bərpa olunması, xalqımızın pozulmuş hüquqlarının bərpası qan tökülməklə deyil, dinc yolla həyata keçirilsin. Bu isə Ermənistanın seçimidir. Ermənistan bu seçimdən imtina edəcəksə, onda Azərbaycan Ordusu və xalqı pozulmuş hüquqlarını bərpa etmək, torpaqlarımızı azad etmək üçün ən təsirli addımlara atmağa hazır olduğunu və qələbəsini təmin etmək qüdrətini sübuta yetirəcək”.

Videokonfransda, həmçinin Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, Milli Məclisin deputatı Arzu Nağıyev, Milli Məclisin deputatı Ceyhun Məmmədov və Ana Vətən Partiyasının sədri, Milli Məclisin deputatı Fəzail Ağamalı çıxış edərək Ermənistanın törətdiyi növbəti hərbi təxribat barədə fikirlərini bildiriblər. Qeyd olunub ki, işğalçı Ermənistan bu təxribatı törətməklə öz məkrli məqsədlərinə nail olmayıb. Azərbaycan Ordusu qarşı tərəfə layiqli cavab verib. Bildirilib ki, Ermənistanın məqsədi öz daxili problemlərdən diqqəti yayındırmaq, həmçinin Azərbaycanın artan beynəlxalq nüfuzuna zərbə vurmaqdan ibarət olub. Amma işğalçı ölkə heç bir məqsədinə nail ola bilməyib. Çıxışlarda qeyd edilib ki, döyüş və diplomatiya müstəvisində məğlub olan ermənilər beynəlxalq terrora əl atıb. Bunu bir sıra ölkələrdə Azərbaycan diasporuna və diplomatik korpuslara edilən hücumlar da təsdiqləyir.

Videokonfransa yekun vuran YAP Sədrinin müavini Əli Əhmədov qeyd edib ki, bu gün güclü və qüdrətli Azərbaycanın qarşısında təlaş içində vurnuxan Ermənistan dayanıb. Onun sözlərinə görə, Azərbaycan xalqı addım-addım qələbəyə doğru irəliləyir və biz Prezident İlham Əliyevin rəhbərliyi ilə bu qələbəyə nail olacağıq.

# Jalə Əliyeva Prezidentin Tovuzla bağlı Sərəncamından yazdı



***Milli Məclisin deputatı, professor Jalə Əliyeva Azərbaycan Prezidentinin Tovuz rayonunda Ermənistan hərbi qüvvələrinin təxribatı nəticəsində mülki vətəndaşlara, onların əmlakına dəymiş ziyanın aradan qaldırılması ilə bağlı Sərəncamı haqda məqalə yazıb. SİA həmin məqaləni təqdim edir: İşğalçı, təcavüzkar Ermənistan və ermənilər üçün heç bir dəyər yoxdur. Onlar xüsusilə, son 32 ildə insanlıq, bəşər adına ləkə gətirə biləcək və gətirən nə varsa, hamısına imza atıblar. Vandalizm, barbarlıq onların iliyinəcən işləyib, onları daha da murdarlaşdırıb, amansızlaşdırıb, cinayətlərdən cinayətlərə, qəddarlıqlardan qəddarlıqlara sövq edib.***

İyulun 12-də növbəti təxribatları və fitnəkarlıqları nəticəsində sərhəddin Tovuz istqamətində yaşananlar və 11 gün ərzində davam edənlər də bir daha deyilənləri əyani şəkildə əks etdirir. Yəni, ermənilər, Ermənistan üçün dəyişən, dəyişəcək heç nə yoxdur, yenə də vandalizm, yenə də barbarlıq, yenə də dinc, mülki əhaliyə qarşı yönələn aqressiya, yenə də yaşayış məntəqələrinin, evlərin hədəf alınması...

Düzdür, Azərbaycan dövləti və onun müzəffər Ordusu bu 11 gün ərzində düşmənə necə lazımdırsa, gərəkən layiqli, haqq etdiyi cavabını verib, ona bir daha öz gücünü göstərib, amma bununla belə, ermənilərin, işğalçı ordunun sərhəd bölgəsinin, Tovuz rayonunun sakinlərinə vurduqları ziyanlar hələ də davam etməkdədir. Azərbaycan Ordusu ilə heç cür bacara bilməyən işğalçı öz qəzəbini, heyfini dinc, mülki insanlardan, evlərdən, yaşayış məntəqələrindən çıxmağa cəhd edir və bir daha insanlığa yaraşmayan idbar simasını ortaya qoyur.

Ancaq hər dəfə olduğu kimi, yenə işğalçı və təcavüzkar ölkə Azərbaycanın bu istiqamətdə də gücünü, sarsılmazlığını görür. Azərbaycan dövləti, dövlət rəhbərliyi öz vətəndaşının, öz insanının yanında olduğunu, onun qayğıları, ağrı-acıları ilə yaşadığını növbəti dəfə nümayiş etdirdi. Belə ki, bir neçə gün öncə ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanan “Tovuz rayonunu Ermənistan Respublikası Silahlı Qüvvələrinin intensiv atəşə tutması nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılması ilə bağlı tədbirlər haqqında” Sərəncam deyilənləri əyani şəkildə təsdiqləyir.

Sərəncamda da qeyd edildiyi kimi, Ermənistan Silahlı Qüvvələrinin 2020-ci ilin iyul ayının 12-dən başlayaraq Ermənistan və Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində qəsdən və hədəflənmiş şəkildə yaşayış məntəqələrini iri çaplı silahlardan və ağır artilleriya qurğularından intensiv atəşə tutması nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə ciddi ziyan dəyib.

Odur ki, dəymiş ziyanın aradan qaldırılması, zərər vurulmuş obyektlərin tam bərpası və təmirtikinti işlərinin sürətlə həyata keçirilməsi məqsədilə tələb olunan maliyyə vəsaiti barədə təkliflərin Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi tapşırılıb. Bəli, bu, bir daha onu göstətir ki, son 5-6 ayda yaşanan vəziyyətə, koronavirus pandemiyasının, bu gizli düşmənin iqtisadiyyata ağır zərbələr endirməsinə rəğmən, öz vətəndaşının, öz insanının sağlamlığını qorumaq üçün bütün tədbirləri görən güclü Azərbaycan dövləti, ölkəsinin dinc, təhlükəsiz yaşamının təmin edilməsi üçün də var gücü ilə çalışır və çalışacaq. Vandalizm, barbarlıq nəticəsində uçulan, dağıdılan, məhv edilən evlərin, obyektlərin yerində daha da yaxşısı, daha da təminatlısı qurulacaq, daha da müasiri yaradılacaq. Düşmənin və onun havadarlarının bu yöndə də təxribatları, antiinsani addımları Azərbaycan dövlətini sarsıtmayacaq, onu geri çəkindirməyəcək, əksinə, daha əzmkar, yağı düşmənə qarşı daha da səfərbər edəcək. Və sonda bir daha qeyd etmək yerinə düşər ki, Tovuz rayonuyla bağlı olaraq verilən Sərəncam da bu əzmkarlığın, bu səfərbərliyin nümunəsi kimi qiymətləndirilməlidir.

# ICESCO İslam dünyasında su təhlükəsizliyi mövzusunda forum keçirəcək

***İyulun 27-də İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) “Su təhlükəsizliyinin İslam dünyasında sülh və inkişafın təmin edilməsində rolu” mövzusunda virtual forum keçirəcək.***




AZƏRTAC xəbər verir ki, bu tədbirin keçirilməsi gələn il Seneqalda təşkil ediləcək Dünya Su Forumuna hazırlıq məqsədi daşıyır. ICESCO-nun məlumatında bildirilir ki, tədbirdə iştirak edəcək üzv ölkələrin nümayəndələri Dakar forumuna təqdim ediləcək hesabatların xülasəsini təqdim edəcək, öz ölkələrində su təhlükəsizliyi ilə əlaqədar vəziyyətdən danışacaqlar. Foruma, həmçinin beynəlxalq təşkilatların təmsilçiləri də qatılacaq. Ekspertlər İslam ölkələrində su ehtiyatları, onlardan səmərəli istifadə və bu sahədə əməkdaşlığa dair hesabatlarla çıxış edəcəklər. Tədbir çərçivəsində ICESCO və Dakar Dünya Su Forumunun baş katibliyi arasında əməkdaşlığa dair sənəd də imzalanacaq.

# Bakıdan Zərdabacan anılan BÖYÜK ZƏRDABİ...



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan milli mətbuatının 145 illik yubileyinin keçirilməsi haqqında 30 İyun 2020-ci il sərəncamından irəli gələrək, Həsən Bəy Zərdabi irsinin təbliği, milli-mənəvi dəyərlərimizin qorunmasına dəstək məqsədilə Təşəbbüs Qrupu respublikanın gənclər təşkilatları, hökümət, qeyri-hökumət və diaspora təşkilatları ilə müxtəlif mövzularda silsilə online videokonfranslar düzənlənib. SİA-nın verdiyi xəbərə görə, Həsən Bəy Zərdabi irsinin tədqiqi və araşdırılması sahəsində geniş məlumatı və fəaliyyəti olan Zərdabişünas alimlərin




online webinarları fəal sosial şəbəkə istifadəçiləri tərəfindən böyük maraqla izlənilib.

28 İyun 2020-ci il tarixdən start verilən silsilə online videokonfranslar çərçivəsində Azərbaycan və Türkiyə ziyalılarının, millət vəkillərinin, mətbuat nümayındələrinin, hökümət və qeyri-hökümət təşkilatları təmsilçilərinin iştirakı ilə geniş marağa səbəb olan görüşlər keçirilib. Həsən Bəy Zərdabinin ev muzeyindən canlı yayım vasitəsi ilə izləyicilərə geniş məlumatlar verilmişdir. Həsən Bəy Zərdabi irsinin təkcə Azərbaycanda deyil eyni zamanda diaspora təşkilatlarının dəstəyi ilə dünyanın bir çox ölkələrində, xüsusi ilə Türkiyədə geniş təbliği qərara alınıb. Karaman şəhəri ilə Zərdab rayonunun qardaşlaşması və Türkiyənin tarixi Karaman şəhərində Həsən Bəy Zərdabinin adına parkın salınması təşəbbüsü irəli sürülüb.

22 İyul Azərbaycan Mətbuatının 145 illiyi münasibəti ilə Həsən Bəy Zərdabi İrsinin Təbliği Təşəbbüs Qrupunun üzvləri - Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini, professor Jalə Əliyeva, Həsən Bəy Zərdabi nəslinin nümayəndəsi, iqtisadçı alim Nüsrət Məlikov, gənc ictimai fəal Seymur Bayramov bu gün ümumilli lider Heydər Əliyevin, görkəmli oftolmoloq alim Zərifə Əliyevanın, ictimai xadim, ziyalı, maarifçi-publisist, Azərbaycan mətbuatının banisi Həsən Bəy Zərdabinin məzarını ziyarət ediblər.

Sonra Zərdab rayon İcra Hakimiyyəti tərəfindən 22 iyul - Milli Mətbuat Günü ilə əlaqədar ölkədə koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar Azərbaycan Respublikasının ərazisində tətbiq edilən xüsusi karantin rejiminin tələbləri və Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyələri nəzərə alınmaqla Zərdab rayonunda keçirilən tədbirə qatılan Həsən Bəy Zərdabi İrsinin Təbliği Təşəbbüs Qrupu RİH başçısı Mərdan Camalzadə və bir qrup ziyalı-“Əkinçi” qəzetinin baş redaktoru İsaməddin Əhmədov, Zərdabişünas alim Eldəniz Həsənov, “Əməkdar müəllim” Ömər Tarverdiyev, Zərdabişünas Cəmil Əsəd, veteran jurnalist Mirağa Bağırov, Zərdabi LTD MMC-nin direktoru Elman Qasımov, jurnalistlər Vüqar Rəhimov, Süleyman Tarverdi, iş adamları Vəfa Muradzadə və Ramil Mehdiyev H.B.Zərdabinin abidəsi önünə tər gül-çiçək dəstələri düzüb, bu dahi şəxsiyyətin parlaq xatirəsi qarşısında ehtiramla baş əyiblər.

# Hikmət Hacıyev: “Azərbaycan ATƏT-in Minsk qrup




***Azərbaycan Prezidenti Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri, Prezidentin köməkçisi Hikmət Hacıyev Rusiya çıxan “Kommersant” (“C”) qəzetinə iyulun 12-də Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan sərhədinin Tovuz istiqamətində törətdiyi provokasiya barədə müsahibə verib. AZƏRTAC həmin müsahibəni təqdim edir.***

X X X

Ötən həftə Ermənistan-Azərbaycan sərhədində hərbi münaqişə son illərdə ən ciddi şəkildə kəskinləşib. Tərəflər indiyə qədər hər gün atəşkəs rejiminin pozulması hallarını qeyd edirlər. “C” qəzetinin müxbiri, münaqişə zonasından Bakıya gəlmiş Kirill Krivoşeyev Azərbaycan Prezidentinin xarici siyasət məsələləri üzrə köməkçisi Hikmət Hacıyevin yaranmış vəziyyəti necə görməsi və tərəflərin danışıqlara nə vaxt qayıda biləcəyi barədə suallarla müraciət edib. Oxşar məzmunlu sorğu Ermənistan XİN-ə də göndərilib, Ermənistan tərəfi hadisəni öz mövqeyindən qiymətləndirib.

## “Qərəzli provokasiya və hərbi-siyasi avantüra”

***-Azərbaycanın hakimiyyət orqanları yaxın günlərdə vəziyyətin kəskinləşməsindən necə nəticə çıxaracaqlar?***

-Bu kəskinləşmə erməni silahlı qüvvələri tərəfindən qərəzli provokasiya və hərbi-siyasi avantüra idi. Biz bunu təcavüz aktı, terror aktı, o cümlədən silahlı qüvvələrdən Azərbaycana qarşı qanunsuz istifadə aktı və dövlət sərhədini pozmaq cəhdi kimi qiymətləndirirk. Bütün bunlara baxmayaraq, erməni tərəfi öz qarşısına qoyduğu məqsədlərə nail ola bilmədi.

***-Gələcəkdə buna oxşar vəziyyətin təkrarlanmasını istisna etmək üçün siz nə edə bilərsiniz?***

-Bu hadisələr ATƏT-in Minsk qrupunun həmsədrləri (Rusiya, ABŞ və Fransa - “C”), bütün beynəlxalq birlik tərəfindən Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanmasına yönəlmiş tədbirləri gücləndirməyin zəruri olmasını bir daha vurğulayır. Regionda sülhə və təhlükəsizliyə təhdidin əsas mənbəyi münaqişənin nizamlanmamış statusudur. Sonuncu dəfə vəziyyətin kəskinləşməsi bir daha göstərdi ki, erməni tərəfi regionda vəziyyətin kəskinləşməsi, gərginlik yaradılması və iki ölkə arasında dövlət sərhədi və təmas xətti boyunca eskalasiya üçün bu cür hərbi avantüralardan həmişə istifadə edir.

***-Tovuz rayonunda adamlar mənə söyləyirdilər ki, onlar dövlətlər arasında qanuni sərhəddə vəziyyətin bu dərəcədə kəskinləşməsini ilk dəfə görürlər. Bu, o demək ola bilərmi ki, münaqişə zonası Qarabağın hüdudlarından kənara genişlənir?***

-İki ölkənin sərhədində yeni münaqişə ocağı yaratmağa çalışan erməni tərəfin niyyətlərindən biri məhz bundan ibarət idi. Onlar həm də Şərq-Qərb xəttində nəqliyyat, o cümlədən enerji və kommunikasiya xətləri üçün təhlükə yaratmaq niyyətindədirlər. Bundan əlavə Ermənistanda daxili vəziyyət kəskinləşir. Ermənistanın hakimiyyət orqanları bu yolla əhalinin diqqətini, xüsusən COVID-19-a qarşı mübarizə sahəsində özlərinin fəaliyyətsizliyi nəticəsində yaranmış daxili problemlərdən yayındırmaq istəyirlər.

Bununla bərabər, erməni tərəfi münaqişəyə üçüncü tərəfləri, o cümlədən özünün daimi üzv olduğu hərbi-siyasi alyansları (Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı, KTMT nəzərdə tutulur - “C”). Lakin bu təşkilatın üzvləri olan ölkələr erməni tərəfin niyyətlərini tamamilə başa düşərək öz fikirlərini müxtəlif səviyyələrdə ifadə ediblər. Ermənistandan başqa bu təşkilatın üzvü olan bütün ölkələrlə Azərbaycan arasında dostluq münasibətləri yaranıb. Erməni tərəfin məkrli cəhdləri uğursuz olub.

***-Siz münaqişənin budəfəki kəskinləşməsində Rusiyanın mövqeyini necə qiymətləndirirsiniz? Nə isə başqa şey gözləyirdinizmi?***

-Rusiya tərəfi ilə diplomatik kanallar üzrə, o cümlədən ATƏT-in Minsk qrupunun Rusiyadan olan həmsədri İqor Popovla intensiv dialoq aparırdıq. Hərbi kanallar üzrə kommunikasiya və dialoq mexanizmi mövcuddur, bu mexanizm də işə salınmışdır. Hazırda Rusiya tərəfi vəziyyətin deeskalasiyası üçün əlindən gələni edib. Məsələn, Rusiya və KTMT-nin üzvü olan bütün başqa ölkələr bir daha öz fikirlərini bildirdilər ki, erməni tərəfin niyyətlərinə və təhriklərinə baxmayaraq yaranmış vəziyyət bu təşkilatın məsələsi deyil.

Ən başlıcası - lap yaxın vaxtlarda, bu hadisələr zamanı Rusiya Federasiyasında hərbi təlimlər keçirilirdi. Erməni tərəfi təbliğat fonu yaratmaq üçün bu faktdan istifadə etmək istəyirdi.

Lakin biz Rusiya hərbi idarəsindən zəmanət aldıq ki, bu təlimlər Ermənistan-Azərbaycan sərhədində vəziyyətin kəskinləşməsi ilə əsla bağlı deyil.

## “Ermənistan hətta humanitar məsələlərdə də pozucu mövqe tutur”

***-Məhz vəziyyətin kəskinləşdiyi vaxtda Azərbaycanda Xarici İşlər naziri dəyişdirildi. Bu ərəfədə Prezident İlham Əliyev Nazirlər Kabinetinin müşavirəsində Elmar Məmmədyarovu tənqid etdi. O deyirdi ki, məsələnin mahiyyətinə aid olmayan mənasız danışıqlar aparılır. Siz bu frazanı necə izah edə bilərsiniz? Son vaxtlar xalqları sülhə hazırlamaq proqramı barədə danışıqlar aparılırdı. Belə çıxır ki, Prezident məhz humanitar mübadilələri, jurnalistlərin mübadiləsini mənasız adlandırıb?***

-Yox, mən deyərdim ki, burada söhbət bütövlükdə danışıqlar prosesindən gedir. 1994-cü ildən atəşkəs rejimi mövcuddur. O vaxtdan bəri erməni tərəfi Azərbaycanın suveren ərazilərini ilhaq etmək üçün həmişə bu rejimdən pərdə kimi istifadə edir. ATƏT-in Minsk qrupunun həmsədrlərinin mandatında isə açıq-aydın yazılıb ki, həmin mandat BMT Təhlükəsizlik Şurasının qətnamələrinə, Helsinki Yekun Aktına və beynəlxalq hüquqa əsaslanır. Danışıqlar prosesinin mahiyyəti Azərbaycan ərazilərinin işğaldan azad olunmasını və azərbaycanlı qaçqınların öz yurdlarına qaytarılmasını təmin etmək, Azərbaycanın beynəlxalq miqyasda tanınmış sərhədləri çərçivəsində onun ərazi bütövlüyünü bərpa etməkdir.

ATƏT-in Minsk qrupunun

# pu çərçivəsində konkret danışıqların tərəfdarıdır”

həmsədrlərinin ali səviyyədə dəfələrlə bəyan etdikləri kimi status-kvo qəbuledilməzdir və dəyişməlidir. Ermənistan isə Azərbaycan ərazilərinin hərbi işğalını və ilhaqını davam etdirmək məqsədilə danışıqlar prosesindən sui-istifadə edir. Ermənistan var qüvvəsi ilə mühüm mövzuların müzakirəsindən diqqəti yayındırmağa çalışır və əsas diqqəti simptomatik məsələlər üzərində cəmləşdirir. Məsələn, 2016-cı ilin aprelində vəziyyət kəskinləşəndən sonra ermənilər təmas xəttində insidentlərin təhqiqatı ilə, Kaspşikin (ATƏT-in fəaliyyətdə olan sədrinin Dağlıq Qarabağ münaqişəsi üzrə həmsədri Anji Kaspşik - “C”) qrupunun əməkdaşlarının sayının artırılması ilə məşğul olmağı təklif edirdilər. Məsələnin mahiyyəti üzrə danışıqlar prosesi çərçivəsində bu cür texniki məsələlər, o cümlədən, erməni qoşunlarının çıxarılması kontekstində müzakirə edilə bilər.

Azərbaycan xalqın sülhə hazırlanmasının, humanitar mübadilələrin əleyhinə deyil. Lakin biz ilk növbədə hərbi işğal məsələsini həll etməliyik.

Yenilənmiş Madrid prinsiplərində münaqişənin nizamlanması və işğalçı erməni qüvvələrinin mərhələli şəkildə çıxarılması nəzərdə tutulur. Lap yaxın vaxtlarda Sergey Lavrov (RF XİN başçısı - “C”) bu faktı vurğulayıb. Minsk qrupunun zaman çərçivələri, yəni erməni qoşunlarının Azərbaycanın işğal edilmiş bu və ya digər rayonundan nə vaxt çıxarılacağı göstərilməklə öz fəaliyyət planı olmalıdır.

Minsk qrupunun sədri Mario Rafaelli olanda (1992-1993-cü illər) onun konkret planı vardı. Bu plan BMT Təhlükəsizlik Şurasının Ermənistanın hərbi qüvvələrinin işğal edilmiş Azərbaycan ərazilərindən çıxarılması barədə qətnamələri əsasında tərtib edilmişdi. Artıq 30 il keçib. Bəs bu plan nə üçün reallaşdırılmır? Minsk prosesində 11 ölkə iştirak edir. Onlar hamısı fəal olmalıdır.

Biz Minsk prosesinin bütün iştirakçılarını çağırmalı və əsas diqqəti danışıqlar prosesinin mahiyyəti üzərində cəmləşdirməliyik.

Jurnalistlər mübadiləsi və ya hər hansı başqa humanitar layihələr isə əsas məqsəd ola bilməz. Bunlar hamısı köməkçi elementlərdir.

***-Yəni əgər siz danışıqlar masası arxasına qayıtsanız və erməni tərəfi yenə humanitar mübadilə təklif etsə siz deyəcəksiniz ki, bunu yalnız sonra müzakirə edəcəksiniz?***

-Biz ümumi vəziyyəti qiymətləndirməliyik. Erməni tərəfi danışıqlar prosesinə sadiq olduğunu təsdiq etməlidir. Ona görə ki, biz indiyə qədər görmüşük: ermənilər ali səviyyələrdə gah bir, gah başqa söz deyirlər. Onlar danışıqlar prosesinin formatını və predmetini hər vasitə ilə pozmaq istəyirlər. Ermənistan hətta humanitar məsələlərdə də pozucu mövqe tutur. Məsələn, Azərbaycan erməni tərəfin saxladığı hərbi əsirləri və girovları “hamını hamıya” prinsipi üzrə dəyişməyi təklif edir (onlardan biri Rusiya vətəndaşıdır). Azərbaycan COVID-19 pandemiyası dövründə bu təklifi bir daha irəli sürdü, erməni tərəfi isə yenə rədd cavabı verdi.

Xalqların sülhə hazırlanması məsələsinə gəldikdə isə, biz hesab edirik ki, sülhə hazırlaşmağa ehtiyacı olan ilk növbədə Ermənistanın hərbi siyasi rəhbərliyidir. Paşinyan (Ermənistanın baş naziri Nikol Paşinyan - “C”) bəyan edir ki, Qarabağ Ermənistandır. Məgər bu bəyanat sülhə xidmət edir? Yaxud Ermənistanın müdafiə naziri (David Tonoyan - “C”) “yeni ərazilər xatirinə, yeni müharibə” barədə danışır. Bu sülhə hazırlıqdır, yoxsa bu yaxınlarda gördüyümüz yeni müharibəyə?

***-Lakin erməni tərəfi danışıqlar masası arxasına Stepanakert nümayəndələrini əlavə etmək niyyətində olduğunu gizlətmir.***

-İndiki məqamda danışıqlar prosesinin formatı artıq məlumdur. Münaqişənin iştirakçıları Ermənistan və Azərbaycandır. Beynəlxalq hüquqa görə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərində olması Ermənistanın münaqişə tərəfi kimi məsuliyyətini müəyyən edir. Azərbaycanın işğal edilmiş ərazisində qeyri-qanuni rejim yaradılması isə, həmin rejimə danışıqlar prosesinin iştirakçısı olmaq hüququ vermir. Münaqişənin nizamlanması formatını dəyişməyə heç kəsin hüququ yoxdur.

***-Minsk qrupu işinin öhdəsindən gəlmir?***

-Mən belə deyərdim: bu bizi qane etmir. Mən onlara açıq demişəm ki, onların yalnız məlumatların çatdırılmasından ibarət olan iş mexanizmi səmərəli deyildir. Onlar erməni tərəfindən müəyyən informasiyanı alır, bu informasiyanı bizə, sonra isə geriyə çatdırırlar. Halbuki erməni qoşunlarının Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılmasının və qaçqınların doğma yurdlarına qayıtmasının dəqiq planı olmalıdır.

***Həmsədrlər deyirlər: Qoy Ermənistan və Azərbaycan öz aralarında razılığa gəlsinlər, biz isə onların qərarını dəstəkləyərik. Belə olan halda onların moderator rolu nədən ibarətdir?***

Bir məsələni də unutmayın ki, bu qrupun üç həmsədri BMT Təhlükəsizlik Şurasının daimi üzvləridir. Bir daha təkrar edirəm, hərbi işğal faktı mövcuddur. Həmsədrlər bu fakta siyasi və hüquqi qiymət verməli və bunun əsasında biz irəliyə getməliyik.

Azərbaycanın işğal edilmiş ərazilərində Ermənistanın qanunsuz hərəkətləri, o cümlədən oraya ermənilərin qeyri-qanuni köçürülməsi danışıqlar prosesinin mənasını tamamilə heçə endirir. ATƏT-in 2005-ci və 2010-cu illərdə faktaraşdırıcı missiyaları Azərbaycanın işğal edilmiş ərazilərində qeyri-leqal hərəkətlərlə bağlı çoxlu faktlar aşkar etdi. Bu məsələlərə münasibətdə həmsədrlər tərəfindən konkret mövqe görünmür. Həmsədrlərin mandatı BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsidir. Başqa sözlə desək, həmsədrlərin birinci dərəcəli məqsədi həmin qətnamələrin tələblərini yerinə yetirməkdən ibarət olmalıdır. Bu qətnamələr Minsk qrupu təsisatının pasportu və doğum haqqında şəhadətnaməsidir. Lakin çox təəssüf ki, onlar bunu tez-tez unudurlar.

## “Erməni nazir danışıqlar prosesinə kompüter oyunu kimi baxır”

***-Lakin erməni tərəfi deyir ki, son iki ildə danışıqlar prosesində uğurlar qazanılıb. Siz bu fikirlə razı deyilsiniz?***

-Əsla razı deyiləm. Nümunə üçün deyin, hansı irəliləyişlər olub. Bir şey aşkardır ki, Ermənistan üçün tərəqqi heç bir nəticə verməyən danışıqlar prosesinin imitasiyasının davam etməsidir.

-Düşənbə (2018-ci ilin sentyabrında orada Nikol Paşinyan və Azərbaycan Prezidenti İlham Əliyev görüşüblər - “C”), operativ əlaqə yaradılması...

-Düşənbədə məhz Azərbaycan tərəfin siyasi iradəsi və konstruktivizmi sayəsində danışıqlar prosesinin irəliləməsi üçün müsbət fon yaradılıb. O vaxt Paşinyan hakimiyyətə yenicə gəlmişdi və Azərbaycan tərəfi gözləyirdi ki, Ermənistanın yeni rəhbərliyi öz sələfləri ilə müqayisədə fərqli siyasət yürüdəcək və beləliklə danışıqlar prosesində irəliləyişə nail olmaq mümkündür.

Onlar danışıqlar prosesi üçün tanış olmaq üçün vaxt istədilər. Bəs sonra nə oldu? Ermənistanın hərbi-siyasi rəhbərliyi özünün ziddiyyətli bəyanatları ilə danışıqlar prosesinə çox ziyan vurdu. Nikol Paşinyan məhz o vaxt demişdi ki, Qarabağ Ermənistandır, NATO-nun qərargahında iş üzrə tanış olduğumuz David Tonoyan isə Brüsseldə “Yeni müharibə - yeni ərazilər” formulunu söylədi. Yeri gəlmişkən, yadımdadır ki, David Tonoyan kompüter oyunlarını çox xoşlayırlar. Hər şeydən görünür ki, erməni nazir danışıqlar prosesinə kompüter oyunu kimi baxır, bu isə çox kədərlidir.

-Mən nazir Tonoyan ilə də, Azərbaycan Müdafiə Nazirliyinin nümayəndəsi Vaqif Dərgahlı ilə söhbət etmişəm. İstər Ermənistanda, istərsə də Azərbaycanda operativ əlaqənin necə işlədiyini heç kəs mənə izah edə bilmədi. Nə üçün bu əlaqə indi işə düşmədi?

-Prinsip etibarilə həmin əlaqə işləmir və səmərəli deyil.

***-Bu insanlar mənə deyirlər: bilirsinizmi, bu məsələ ilə hərbçilər məşğul olmurlar, bununla başqa idarə məşğul olur, amma hansı idarədirsə demirlər. Azərbaycanda kim erməni hərbçilərinə zəng vurub soruşa bilər: “Siz nə edirsiniz?”***

-İki ölkənin səlahiyyətli nümayəndələri arasında müəyyən rabitə kanalı var. Lakin Ermənistanla əlaqədar faktorlar nəticəsində, xüsusən Yerevanda daimi kadr hərcmərcliyi üzündən bu rabitə kanalı praktiki olaraq işləmir və səmərəli deyil. Faktiki olaraq orada əlaqə saxlayası adam yoxdur.

Onlar (Ermənistanın hakimiyyət orqanları - “C”) özləri belə bir mexanizm yaradılmasını xahiş etdilər, sonra isə özləri bir daha göstərdilər ki, bu mexanizm onları maraqlandırmır. Bu fakt Ermənistanın səmimi olmamasını bir daha təsdiq edir.

***-Lakin hər halda bəlkə elə etməyə dəyər ki, bilavasitə hərbçilər zəngləşə bilsinlər. Məsələn, zastava komandirlərinin birbaşa ünsiyyət saxlaması yaxşı olarmı?***

-Lokal səviyyədə, xüsusən təmas xəttində (Ermənistanın və Azərbaycanın beynəlxalq miqyasda tanınmış sərhədində deyil, Qarabağda - “C”) belə rabitə xəttinin müəyyən forması mövcuddur. Lakin biz yenidən danışıqlar prosesinin mənası məsələsinə qayıtdıq. Bütün bunlar nə üçün baş verir? Ona görə ki, hərbi işğal faktı var. Əgər Ermənistan silahlı qüvvələri bizim işğal edilmiş ərazilərdən çıxarılsa, belə texniki mexanizmlərə ehtiyac qalmayacaq. Lakin erməni silahlı qüvvələrinin işğal edilmiş ərazilərdən çıxarılması çərçivəsində onlara ehtiyac ola bilər.

***-Prezident Əliyev deyib ki, Azərbaycan diplomatiyası hücum diplomatiyası olmalıdır və keçmiş təhsil nazirini yeni xarici işlər naziri təyin edib. Bu seçim nə ilə bağlıdır, nə üçün karyeralı diplomat seçilmədi?***

-Bu, cənab Prezidentin qərarıdır. Prezidentin qərarları müzakirə edilmir və şərh olunmur, onlar icra edilir. Mən yeni xarici işlər naziri Ceyhun Bayramovu çox yaxşı tanıyıram və ona uğurlar arzu edirəm. Onunla yoldaşlıq əlaqələrimiz və işgüzar münasibətlərimiz var. Təhsil Nazirliyində özünü çox yaxşı menecer kimi göstərib. Cənab Bayramov strateji təsəvvürlü, çox təcrübəli adamdır. Buna görə inanıram ki, o, cənab Prezidentin yüksək etimadını doğruldacaq.

***“Bundan sonra ağır artilleriya istifadə etməyin mənası nədən ibarət idi?”***

-KİV-lərdə yayılmış məlumata görə, lap yaxın günlərdə Bakı Türkiyədən “Bayraktar” pilotsuz uçuş aparatları alıb. Hərçənd, Azərbaycan KİV-ləri onlar haqqında iyun ayında da, hətta fevral ayında da yazmışdı. Nə isə təzə tədarük olubmu?

-Əvvələn Azərbaycan ilə Türkiyə arasında strateji münasibətlər var. Türkiyə Cənubi Qafqaz regionu ilə bağlıdır, həm Azərbaycanla, həm də Ermənistanla sərhədləri var. Türkiyə həm də Minsk qrupunun üzvüdür.

Türkiyədən keçməklə Suriyadan Azərbaycana silahlıların göndərilməsi barədə informasiya tamamilə cəfəngiyat, yanlış və uydurma xəbərdir. Bu məlumat hansısa əhəmiyyətsiz media resurslarda yayılıb.

Azərbaycan ilə Türkiyə arasında hərbi əməkdaşlıq sirr deyil: bizim həm Türkiyə, həm də Rusiya ilə yaxşı hərbi-texniki əlaqələrimiz var. Biz görürük ki, indiki məqamda Rusiya ilə Türkiyənin strateji maraqları üst-üstə düşür, yəni Cənubi Qafqaz regionunda, Qara dəniz və Xəzər dənizi hövzələrində sülhü, təhlükəsizliyi və əməkdaşlığı təmin etmək lazımdır. Bu, eyni zamanda həm Rusiyanın, həm də Türkiyənin maraqlarına uyğundur. Nəhayət, bu həm də Ermənistanın mənafelərinə uyğundur. Lakin hansısa üçüncü tərəflərin (Ermənistanla münaqişəyə - “C”) cəlb edilməsi Azərbaycanın mənafeyinə uyğun deyil.

*Ardı Səh. 10*

# Hikmət Hacıyev: "Azərbaycan ATƏT-in Minsk qrupu çərçivəsində konkret danışıqların tərəfdarıdır"

Əvvəli-Səh-9

Azərbaycan ilə Türkiyə arasında hərbi əməkdaşlıq sirr deyil: bizim həm Türkiyə, həm də Rusiya ilə yaxşı hərbi-texniki əlaqələrimiz var. Biz görürük ki, indiki məqamda Rusiya ilə Türkiyənin strateji maraqları üst-üstə düşür, yəni Cənubi Qafqaz regionunda, Qara dəniz və Xəzər dənizi hövzələrində sülhü, təhlükəsizliyi və əməkdaşlığı təmin etmək lazımdır. Bu, eyni zamanda həm Rusiyanın, həm də Türkiyənin maraqlarına uyğundur. Nəhayət, bu həm də Ermənistanın mənafelərinə uyğundur. Lakin hansısa üçüncü tərəflərin (Ermənistanla münaqişəyə - "C") cəlb edilməsi Azərbaycanın mənafeyinə uyğun deyil.

Azərbaycan ordusu yaxşı təchiz edilib, ruh yüksəkliyinə və dövlət sərhədinin müdafiəsinin, o cümlədən özünün işğal altında olan ərazilərinin azad edilməsini təmin etmək üçün hər cür imkana malikdir.

***-Deməli, siz hər hansı insident baş verə biləcəyini və Türkiyənin bu məsələyə öz qoşunları səviyyəsində müdaxilə etməsi barədə xahiş olunmasını istisna edirsiniz?***

-Bu, Azərbaycanın maraqlarına uyğun deyil. Bizə hər şey açıqdır, şəffafdır. Biz eyni zamanda həm Rusiya, həm Türkiyə, həm İsrail həm də başqa ölkələrlə çox sıx hərbi-texniki əməkdaşlıq etməyimizi gizlətmirik.

***-Hər halda Azərbaycan "Bayraktar" pilotsuz uçuş aparatları alıb ya yox?***

-Bu məsələ barədə tam məlumatım yoxdur. Yalnız bunu əlavə edə bilərəm ki, Azərbaycanın çox yaxşı dronlar donanması var. Bu, bizim regionda ən yaxşı donanmalardan biridir. O cümlədən, pilotsuz zərbə uçuş aparatları, pilotsuz kəşfiyyat aparatları var. Döyüş əməliyyatları zamanı onlar Azərbaycanın Ermənistan üzərində strateji üstünlüyünü bir daha nümayiş etdirdi.

***-Ermənilər bir neçə dəfə guya vurduqları pilotsuz uçuş aparatlarının fotoşəkillərini nümayiş etdiriblər. Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidməti mənə deyirdi ki, UAZ avtomobilləri (erməni tərəfin versiyasına görə vəziyyətin kəskinləşməsi içərisində Azərbaycan hərbçiləri olan UAZ avtomobilinin ermənilərin nəzarəti altında olan əraziyə daxil olmasından başlanıb - "C") hər iki tərəfdə var və onunla saxta video çəkmək asandır. Lakin İsraildə istehsal edilmiş, Azərbaycanın istifadə etdiyi pilotsuz uçuş qurğuları Ermənistanın təchizatında yoxdur. Siz erməni əsgərlərinin bu cür pilotsuz aparatlarla fotoşəkillərini necə izah edərsiniz?***

-Azərbaycan Müdafiə Nazirliyi bu məsələ barədə bəyanat verib. Əlbəttə, erməni tərəfi burada daha çox fotoşop ilə məşğul olur. Bu müsahibənin dərc edilməsi ərəfəsində Yerevanda erməni tərəfin dediyinə görə, döyüş əməliyyatları zamanı vurulmuş pilotsuz aparatların sərgisi açılıb. Lakin Bakıda onların həqiqiliyini etiraf etmədilər. UAZ avtomobilləri ilə bağlı xüsusi qeyd etmək istəyirəm ki, Azərbaycanın Ermənistan ilə dövlət sərhədində hər hansı hərbi planları və ya hədəfləri yoxdur. Buna görə, Ermənistan ilə sərhədin müəyyən hissəsinin mühafizəsi sərhəd qoşunları tərəfindən həyata keçirilir.

Azərbaycan-Ermənistan dövlət sərhədində eskalasiya Azərbaycanın maraqlarına uyğun deyil. Əksinə, sərhədin bu sahəsində gərginlik mövqeyinin yaranması Ermənistanın maraqlarına uyğundur.

Hər hansı müasir ordunun düşmənin döyüş mövqelərinə zirehsiz nəqliyyat vasitələri ilə hücum edəcəyini düşünmək səfehlikdir. Əgər Azərbaycan hücum etməyi qərara almış olsaydı, o, özünün işğal altında olan ərazilərini azad etmək məqsədilə bunu təmas xətti boyunca edərdi.

***-Demək istəyirsiniz ki, hər halda UAZ olub və haradasa hərəkət edib?***

-UAZ olub, Azərbaycan postları arasında hərəkət edib. Bu onların gündəlik işidir.

***-Siz belə güman etmirsinizmi ki, o, başqa yola düşə, aza bilərdi? Yoxsa ermənilər hansısa yeni istehkam qurub, Azərbaycan əsgərlərinin bundan xəbəri olmayıb və postun üstünə çıxıblar?***

-Bəli, belə xırda insidentlər ola bilər. Bu istisna olunmur. Lakin bundan sonra ağır artilleriyadan istifadə etməyin və Azərbaycan Silahlı qüvvələrinin postlarına hücum etməyin mənası nə imiş? Bu, Azərbaycan tərəfdən üç nəfərin ölümünə və beş nəfərin yaralanmasına gətirib çıxarıb. Erməni tərəfi bu suala cavab verməlidir. Məhz onlar artilleriyadan istifadə etməyə başlamaqla eskalasiya təşəbbüsü veriblər. Bu, ermənilər tərəfindən aşkar təhrikçilik idi. Erməni tərəfi nə üçün artilleriyadan istifadə edirdi?

***-Azərbaycan bildirir ki, döyüşlərdə azı yüz erməni əsgəri ölüb. Bu, Ermənistanın özünün bəyan etdiyindən xeyli çoxdur. Ermənistan deyir ki, onun cəmi dörd əsgəri həlak olub. Bu adamların cəsədləri haradasa olmalıdır Azərbaycan həmin cəsədləri göstərəcəkmi, vətənə qaytaracaqmı?***

-Erməni silahlı qüvvələrinin itkiləri əsasən Ermənistan ərazisində baş verib. Bu halda erməni tərəfi öz hərbi itkilərini, mən deyərdim ki, çox "peşəkarlıqla" gizlədir. Onların öz alqoritmi var. Birincisi, onların ön xəttində əsasən muzdlular - Suriyadan və başqa ölkələrdən olan ermənilər dislokasiya edilib. İkincisi, təcrübə göstərir ki, 10-15 gündən sonra erməni tərəfi, məsələn, belə bəyanatlar edir ki, bədbəxt hadisələr, avtomobil qəzaları baş verib və əsgərlər həlak olub.

Buna görə də biz gözləyirik ki, tezliklə ermənilər tərəfindən belə bir informasiya yayılacaq. Bu sual erməni ictimaiyyətinə, erməni jurnalistlərə, bütövlükdə erməni xalqına aiddir. Baxın, bu hərbi avantüra, bu siyasət nəticəsində sizin uşaqlarınız həlak olub. Bu hərbi avantüraya görə Ermənistanın hərbi-siyasi rəhbərliyi məsuliyyət daşıyır. Biz isə, Azərbaycan cəmiyyətinə həmişə tam informasiya veririk.

### "Azərbaycan məsələnin mahiyyəti üzrə danışıqlara sadiqdir"

***-Bəlkə Moskvanın, bəlkə də ATƏT-in vasitəçiliyi ilə Ermənistanla yeni danışıqları nə vaxt gözləyirsiniz?***

-Gəlin həmsədrləri gözləyək. Onlar da vəziyyəti ümumən təhlil etməli, o cümlədən öz işlərinin effektivliyinə baxmalı və konkret fəaliyyət planları təqdim etməlidirlər. O cümlədən, münaqişənin nizamlanması üzrə növbəti addımlar barədə konkret təkliflər verməlidirlər. Bir daha bəyan etmək istərdim ki, Azərbaycan ATƏT-in Minsk qrupu çərçivəsində məsələnin mahiyyəti üzrə danışıqlara sadiqdir.

***-Əgər siz Minsk qrupunun işindən narazısınızsa, orada güclü və zəif oyunçular varmı? Hər halda bir neçə həmsədr var. Siz Rusiyanın, Fransanın, ABŞ-ın işini ayrı-ayrılıqda necə qiymətləndirirsiniz?***

-Mən onların işini ayrı-ayrılıqda qiymətləndirmək istəmirəm. Bu, etikadan kənar və qeyri-peşəkar hərəkət olardı. Həmsədr ölkələr BMT Təhlükəsizlik Şurasının mandatı əsasında bu məsuliyyəti öz üzərlərinə birlikdə götürüblər. Ona görə də bu prosesi bütünlükdə qiymətləndirmək olar. Ümidvarıq ki, bir məsələdə həmsədrlər də bizimlə razılaşarlar ki, danışıqlar prosesində hələlik heç bir konkret irəliləyiş yoxdur.

Azərbaycanın işğal edilmiş əraziləri hələ işğal altında qalır və qaçqınlar öz evlərinə qayıtmayıblar.

Bununla bərabər Azərbaycanın işğal edilmiş ərazilərinə (ermənilərin) qeyri-qanuni köçürülməsi davam edir, digər qanunsuz hərəkətlər edilir.

***-"Əl-Cəzirə" telekanalında nazir Mnatsakanyan (Ermənistan XİN rəhbəri Zöhrab Mnatsakanyan - "C") ilə debatları Məmmədyarov yox, siz aparırdınız. O vaxt bu müəyyən mənada vaxtsız təsir bağışlayırdı...***

-Bu, tamamilə təsadüfən olmuşdu. Mən heç bilmirdim ki, Mnatsakanyan orada olacaq. Siz artıq bilirsiniz ki, mən təbiətən jurnalistlər üçün çox açıq adamam və onların işini çox yüksək qiymətləndirirəm. "Əl-Cəzirə" telekanalından mənə müraciət etdilər və dedilər ki, mənimlə müsahibə təşkil etmək istəyirlər. Mən razılaşdım. Veriliş vaxtı onlar bildirdilər ki, Ermənistan tərəfdən də kimsə olacaq. Mən dedim qoy olsun. Onlar hətta qeyd etdilər ki, bu bir qadın olacaq. Mən cavab verdim lap yaxşı mənim üçün o qədər də əhəmiyyəti yoxdur. Lakin proqramın gedişində gördüm ki, orada ermənilər tərəfindən məhz Ermənistanın xarici işlər naziri Mnatsakanyan iştirak edir.

***-Bilirsiniz bunu nəyə görə deyirəm? Elə bir dövr olacaqmı ki, yeni nazir işin içərisinə daxil olsun və danışıqlara nazir yox, siz gedəsiniz?***

İndiki məqamda bu sualınızı şərh edə bilmərəm. Ona görə ki, xarici işlər naziri var. Onun öz vəzifələri, öz səlahiyyətləri var. Təbii ki, cənab Prezident öz müvafiq tapşırıqlarını verib.

***-Deməli siz indi həmsədrlərdən danışıqların bərpası barədə təkliflər gözləyirsiniz?***

-Siz haqlısınız. Azərbaycan danışıqlar prosesinin tərəfdarıdır. Biz Azərbaycan ərazilərinin işğaldan azad olunmasının və azərbaycanlı qaçqınların öz evlərinə qayıtmasının təmin edilməsi məqsədilə konkret danışıqlar prosesinin davam etdirilməsi barədə həmsədrlərdən konkret təkliflər gözləyirik.

## Rusiya beynəlxalq axtarışda olan 3 nəfəri Azərbaycana təhvil verib



***Rusiya Baş Prokurorluğu Azərbaycan tərəfinin istəyi əsasında Azərbaycan ərazisində cinayət törətməkdə təqsirləndirilənləri cinayət təqibi üçün təhvil verib. Bu barədə Rusiya Federasiyası Baş Prokurorluğu xəbər verir. Məlumata görə, 3 nəfər xüsusi kanvoyun müşayiəti ilə Azərbaycan tərəfinə təhvil verilib. Belə ki, Şirxan Abdullayev 2015-ci ilin mart ayında Gəncə şəhərində baş verən dava zamanı zərərçəkmişi bıçaqlamaqda, ona ağır bədən xəsarəti yetirməkdə ittiham olunur.***

Elvin Cəfərov 2017-ci ilin martında Bakıda sifarişlə hərəkət etməklə, təhdid və zorakılıqlardan istifadə edərək bir nəfəri oğurlamaqda ittiham olunur. Fuad Abbasov isə 2019-cu ilin iyun ayında Bakıda olarkən mübahisə zəminində tanışına ağır bədən xəsarəti yetirməkdə ittiham olunur. Müttəhimlər cinayətləri törətdikdən sonra hüquq-mühafizə orqanlarından qaçıblar və onlar beynəlxalq axtarışa verilib.

## Rəhbərə alqış!





Ölkəyə, vətənə, xalqına həyan
Prezident İlhamla Xanım Mehriban.
Karona virusdan xalqı qoruyur
Dünyada bu belə eyləyir tüğyan.

"COVİD -19" - dur bəlanın adı
Sirli bir aləmdir onun ustadı.
Ağızlarda yaşmaq, əllərdə əlcək
Allahdan istəyək yalnız imdadı.

Şəhər, rayonlarda ciddidir rejim
Profilaktik tədbirlər görülür hər gün.
Prezident qərarı, təbiblər səyi
Xəstələr sağalır, azalır ölüm.

Xalqı, el-obanı sevən SƏRKƏRDƏ
Döyüşkən əsgərdir O, ön cəbhədə.
Əlindən silahı yerə qoymayır
Sayıqlıq göstərir hər bir bölgədə.

Prezident xalqına arxa dayaqdır
Gecə də, gündüz də daim oyaqdır.
Vətən xainlərin cəzalandırır
O, xalqın gözündə nurlu çiraqdır.

Hikməli kəlamlar bir yadigardır
"Azərbaycan xalqı dözümlü xalqdır",
Ulu Öndər Heydər belə söyləmiş
Dünya dövr etdikcə bu bizə yardır!.

İnsanlara hörmət, qayğı, ehtiram
Daima göstərir Prezident İlham.
Vitse-prezident də Mehriban xanım
Qürurla doğruldur xalqın inamın!.

**Ofelya Mürsəl qızı Mürsəlova**
**ADPU-nun sabiq pedaqoqu**

# Quduzlaşmış işğalçı rejim xalqın hiddəti qarşısında tab gətirmir

## *Sergey Markov: "Ermənistanın məqsədi KTMT-ni Azərbaycanla münaqişəyə cəlb etməkdir, KTMT üzvləri bu hiyləni yaxşı başa düşür"*

***Zaman-zaman Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış edən ermənilər bu gün də öz saxtakarlıqlarından əl çəkmirlər. Amma etiraf etmək lazımdır ki, saxtakarlıq yolu tutan bu xalqın cəfəng iddialarına sadəcə cavab verməklə kifayətlənmişik. İndiki Ermənistan adlı dövlətin ərazisinin tarixi Azərbaycan torpaqları olması faktını vaxtı ilə lazımınca dünya ictimaiyyətinə çatdırmamışıq. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarında bu məsələyə aydınlıq gətirərək demişdir: "Tarix sübut etdi ki, hazırkı Ermənistan deyilən dövlətin ərazisi əzəli Azərbaycan torpaqlarıdır. Heç bir tarixçi, normal araşdırmaçı bunu inkar edə bilməz. Ermənilərin Azərbaycan ərazilərinə və bütövlükdə Cənubi Qafqaza gəlmə olduğu, çar Rusiyasının Qafqaza doğru istilaçılıq siyasətinin genişləndiyi vaxtlarda bu ərazidə onların heç bir dövlət qurumunun yoxluğu tarixçilər tərəfindən dəfələrlə sübuta yetirilib.***

Ermənilərin əsas məskənləri indiki Balkan yarımadası olub və sonralar onlar Kiçik Asiya yarımadasına gəliblər. XIX əsrin əvvəllərində Rusiyanın Qafqaza doğru genişlənməsi tədricən bu ərazilərə ermənilərin gətirilməsi, onların Azərbaycan torpaqlarında məskunlaşdırılması ilə müşayiət olunurdu".

### Erməni siyasətçiləri işğalçı olduqlarını etiraz etmirlər

Həmişə olduğu kimi, işğalçı ölkə növbəti dəfə beynəlxalq hüquq normalarını kobud və nümayişkaranə şəkildə pozaraq iyulun 12-də günorta saatlarından başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu sahəsində atəşkəs rejimini kobud şəkildə pozaraq artilleriya qurğularından istifadə etməklə mövqelərimizi atəşə tutdular. Hər dəfə olduğu kimi, bu dəfə də Azərbaycan Ordusunun gücü, Azərbaycan əsgərlərimizin əzm və rəşadəti nəticəsində təcavüzkar ölkənin təxribatı məclubiyyətə uğurradı. Erməninі nümayiş etdirdi. Və Tovuz rayonu istiqamətində baş vermiş hadisə ermənilərin məkrli siyasəti alt-üst oldu. Həmçinin, Ermənistan bu kimi təxribatçı əməlləri ilə xarici siyasətdə münaqişəyə digər dövlətləri cəlb etməklə məğlub ordusunun qoruya bilmədiyi ərazisində və işğal altında olan torpaqlarımızda "dayaq" yaratmağa çalışsa da, heç bir şeyə nail ola bilmədi.







### Georgi Vanyan: "Ermənistan hakimiyyətinin iddialar əsassızdır. İşğal olunmuş ərazilər suveren Azərbaycanın torpaqlarıdır"

Erməni hüquq müdafiəçisi, Qafqaz Sülhməramlı Təşəbbüslər Mərkəzinin rəhbəri Georgi Vanyan məsələnin həllində Azərbaycan dövlətinin siyasətinin uğurlu olduğunu söyləyib: "Ermənistan hakimiyyətinin iddialar əsassızdır. İşğal olunmuş ərazilər suveren Azərbaycanın torpaqlarıdır və qeyri-qanuni yolla "qurulmuş" qondarma rejimin nəzarətindəki torpaqlar BMT tərəfindən tanınan Azərbaycan Respublikasının ərazisidir. Erməni xalqı artıq Paşinyanın bu iki il ərzində xalqına etdiyi bu cəlladlığa dözə bilmir. Ölkədə son günlər baş verənlər göstərir ki, daha hiddətli əsgər analarıdır ki, onlar bu hakimiyyəti belə sakit qoymayacaq".

Seyran Saroyan: "Güclünün yanında zəif həmişə günahkardır"

Bununla yanaşı erməni saytlarının xəbərinə görə, Ermənistan rəhbərliyi itkilərin sayının dəqiq bilinməməsi üçün ordu rəhbərliyinə mətbuatla əlaqənin kəsilməsi göstərişini verib. Bu isə əsgər analarının hiddətinə səbəb olub. Məsələyə münasibət bildirən erməni deputatı, general Seyran Saroyan məsələ ilə bağlı əsas günahı baş nazir Nikol Paşinyanda görüb. O, Ermənistan ordusunun zəif olduğunu vurğulayıb: "Güclünün yanında zəif həmişə günahkardır". Eyni zamanda, erməni mətbuatı da açıq şəkildə etiraf edir ki, son döyüşlərdə Ermənistan tərəfi o qədər itki verib ki, yaralıların yerləşdirilməsi üçün yer qalmayıb. "Armenianreport" yazır ki, Azərbaycan Müdafiə Nazirliyi şəhidlərinin sayını açıqlasa da Ermənistan Müdafiə Nazirliyi real itkiləri gizlədir və susur. "Erməni jurnalistlər məlumatları mülki vətəndaşlardan, tibb mərkəzlərindən, ölən əsgərlərin gətirildiyi kilsələrdən və ya təsadüfi şahidlərdən alırlar. Şahidlər isə dəhşətli faktlar deyirlər. Bildirirlər ki, yaralıların sayı o qədərdir ki, onları daşımaq üçün helikopterlər çatmır, avtomobillərlə daşıyırlar. Ona görə də onlar yolda ölürlər. Həkimlər çatışmır, dərmanlar yoxdur".Ümumiyyətlə, erməni mətbuatı döyüşlər başlayan gündən etibarən Ermənistan Müdfaiə Nazirliyini itkiləri gizlətməkdə, yalan məlumatlar yaymaqda günahlandırır.

### "Azərbaycan heç vaxt işğal edilmiş torpaqlarının bu vəziyyətdə qalması ilə barışmayacaq, işğalla barışmayacaq və əlindən gələni edəcək ki, öz ərazi bütövlüyünü bərpa etsin"

Prezident İlham Əliyev bütün çıxışlarında və beynəlxalq səviyyəli görüşlərdə dəflərlə bildirib ki, bu təxribaptlar işğalçı Ermənistanını çirkin və məkrli siyasətidir. Prezident İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclasında çıxışı zamanı qeyd etdiyi kimi,: "Bu çirkin və məkrli siyasət Ermənistanı uçuruma aparacaq. Bütün məsuliyyət Ermənistanın rəhbərliyi üzərinə düşür. Azərbaycan öz ərazi bütövlüyünü bundan sonra da qoruyacaq, öz sərhədlərimizi qoruyacaq. Dünən günorta saatlarında və bu gün gecə düşmənə vurulmuş sarsıdıcı zərbələr bir daha onu göstərdi. Həlak olan hərbçilərimizin qisası alındı və onların qanı yerdə qalmayıb və qalmayacaq. Bu çirkin əməllərə əl atmaq onların təcavüzkar siyasətinin təzahürüdür. Bu siyasəti məntiqlə izah etmək mümkün deyil. Çünki, bu siyasət olduqca ziddiyyətlidir və bu siyasət Ermənistan üçün böyük təhlükə mənbəyidir".

Dövlət başçısı onu da bildirib ki, Ermənistan hansı formada təxribatlar edirsə etsin Azərbaycan işğalla barışmayacaq: "Çünki, mən dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, Azərbaycan heç vaxt işğal edilmiş torpaqlarının bu vəziyyətdə qalması ilə barışmayacaq, işğalla barışmayacaq və əlindən gələni edəcək ki, öz ərazi bütövlüyünü bərpa etsin. Beynəlxalq təşkilatlara müvafiq müraciətlər edilib və operativ vəziyyət imkan verən kimi biz Azərbaycanda fəaliyyət göstərən xarici ölkələrin hərbi nümayəndələrini həmin əraziyə dəvət edəcəyik, onlar öz gözləri ilə vəziyyəti görsünlər. Görsünlər ki, kim bu hərbi təxribatı törədib. Bu hərbi təxribat nəticəsində nələr baş verib və kim vəziyyətin gərginləşməsinə cavabdehlik daşıyır. Bizim işimiz haqq işidir və Azərbaycan öz prinsipial mövqeyindən bir addım geri atmayacaq".

Azərbaycan Prezidenti, Ali Baş Komandan təcavüzkar və işğalçı ölkənin rəhbərliyinə bir daha bəyanat verərək yerində oturmağı deyərək bildirdi ki, hərbiçilərimizin qisası alınıb, bundan sonra da alınacaq: "Mən bir daha demək istəyirəm ki, dünən və bu gecə düşmənə adekvat cavab verilib. Hərbçilərimizin qisası alınıb, bundan sonra da alınacaqdır. Hərbçilərimizin, şəhidlərimizin qanı yerdə qalmayıb və qalmayacaq. Biz bütün imkanlardan istifadə edib özümüzü qoruyacağıq və düşmənə yenidən onun öz yerini göstərəcəyik".

***RƏFİQƏ KAMALQIZI***

# Aqasi Yenokyan: "Görəsən Nikol başa düşdü ki, ona sığınacaq da verilməyəcək?"

***Tavuşdakı döyüşlərdən sonra aparılan təbliğat və istər hərbi, istərsə də diplomatik məğlubiyyətlər zamanı Nikol Paşinyan bir neçə gün susdu. SİA Ermənistana məxsus tert.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu barədə "Media Vəkil" təşəbbüsünün rəhbəri Aqasi Yenokyan öz Facebook səhifəsində yazıb.***

O, öz səhifəsində qeyd edib ki, beləliklə, bir çox müzakirələr aparıldıqdan sonra Nikol Paşinyan başa düşdü ki, Ermənistan Rusiyanın dəstəyinə arxalana bilməz və bu, xüsusən də Ermənistan hakimiyyətinin qeyd-şərtsiz Kremlə itaət etməsindən və ya bəzən müstəqillik nümayiş etdirməsindən qətiyyən asılı deyil. "Media Vəkil" təşəbbüsünün rəhbəri qeyd edib ki, digər tərəfdən Paşinyan onu da anladı ki, Ermənistan Qərbin də dəstəyinə arxalana bilməz. Yenokyanın sözlərinə görə, Qərb tərəfdən Ermənistana ya dəstək olmayacaq, ya da bu dəstək olsa belə gec olacaq, yaxud da bu yardımın qarşılığında ermənilərdən çox böyük güzəştlər tələb edəcəklər. "Beləliklə, iki il tələb olunurmuş ki, Nikol Paşinyan saysız-hesabsız döyüşlərin və Qarabağla bağlı danışıqların uğursuzluğundan, Suriyaya qoşunların göndərilməsindən, homoseksuallığın təbliğindən tutmuş konstitusiya quruluşunun dağıdılmasına qədər bütün qüsurlarını görsün və başa düşsün ki, diplomatiya onun, Rusiyanın, ya da Qərbin deyil, Ermənistanın maraqlarına xidmət etməli, söykənməli imiş.



Nikol Paşinyan başa düşsə yaxşı olardı ki, maraqlarını digər ölkələrin maraqları ilə müqayisə etmək və müstəqillik kimi axmaqlığından əl çəkmək lazım idi. Ermənistan öz üzərinə yalnız həll edə biləcəyi vəzifələri qoymalı idi. Başqa sözlə, kassa aparatlarından qəbzləri tələb etmək, maskalar taxmaq kimi ibtidai vəzifələr qoymalı idi, bir hökumət olaraq mövcud olduğunuzu göstərmək üçün Köçəryanı həbs etmək və bunu paylamaq yox.

Problem ondadır ki, ölkə rəhbərliyi bu qədər ibtidai düşüncəsi olan bir siyasi qüvvəyə həvalə edilmiş, müəyyən yanlış addımlar atmağa imkan verilmiş və bu addımların acı nəticə verməsini təmin etmək şansı da verilmişdir", deyə "Media Vəkil" təşəbbüsünün rəhbəri Aqasi Yenokyan öz səhifəsində qeyd edib. "Görəsən Nikol başa düşdü ki, Qərb son dəfə verdiyi vədini də pozacaq və hakimiyyət dəyişdikdən sonra ona sığınacaq da verməyəcək?", deyə A. Yenokyan erməni baş nazirə sual da ünvanlayıb.

***İnam Hacıyev***

# Azərbaycan Ordusu düşmənin istənilən təxribatına cavab vermək iqtidarındadır

***Azərbaycanın güclü Ordusu və rəşadətli əsgərlərinin əzm və şücaəti nəticəsində işğalçı Ermənistanın Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində növbəti təxribatının qarşısı qətiyyətlə alındı. Bu gün "saman çöpü" axtarışında olan təcavüzkar ölkə anlayır ki, işğal etdiyi torpaqları geri qaytarmağa məhkumdur. Ona görə də belə mənasız provokasiyalara əl atır və suyu növbəti dəfə bulandırmağa çalışır. Amma istəyinə nail ola bilməyib və bundan sonra da nail ola bilməyəcək. Təbii ki, bu inama əsas verən Azərbaycan Ordusunun böyük imkanlara malik olmasıdır. İyulun 12-də baş verən hərbi təxribat bunu bir daha təsdiqlədi ki, Azərbaycan öz dövlət sərhədini qorumağa qadirdir.***

Ən əsası bu qələbə Ermənistan hakimiyyətinin ordusunun rəzil durumda oluğunu da göstərdi. Dövlətimizin başçısı İlham Əliyev Təhlükəsizlik Şurasının, eyni zamanda, Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlaına və qarşıda duran vəzifələrə həsr olunan vidomüşavirəsində bütün məsuliyyəti Ermənistan hərbi-siyasi rəhbərliyinin daşıdığını diqqətə çatdırmışdı.

Tcavüzkar Ermənistanın törətdiyi bütün təxribatların əsas səbəbi Azərbaycanın bütün sahələrdə əldə etdiyi uğurlar, qonşu ölkələrlə yüksək səviyyəli əməkdaşlığı, dostluq və mehriban qonşuluq siyasətinin daha güclü olmasıdır. Və işğalçı ölkə bu uğurları və Azərbaycanın haqlı mövqeyinin beynəlxalq səviyyədə dəstəklənməsini qısqanclıqla qarşılayır, dünyanın qlobal problemlə üzləşdiyi bir məqamda regionda sabitliyi təhdid etməklə, işğalçı siyasət həyata keçirir. Onlar təkcə torpaqlarımızı işğalda saxlamır, bununla bərabər, gərginliyin səngiməsinə imkan vermir, regionun təhlükəsizliyinə çox ciddi zərbə vururlar. Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu hissəsində atəşkəs rejimini kobud şəkildə pozaraq artilleriya qurğularından istifadə etməklə mövqelərimizi atəşə tututması bunun bariz nümunəsidir. Ermənistanın yeritdiyi siyasət deyil, onlarının bu hərəkəti insanlığa qarşı terror aktıdır. Eləcədə Ermənistan tərəfindən Azərbaycanlı mülki əhalini məqsədyönlü şəkildə hədəfə almaq və ağır silahlardan atəşə tutmaq vandalizm nümunəsidir.

Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev açıq bəyan edib ki, Azərbaycanın ərazi bütövlüyü danışıqların mövzusu deyil və heç vaxt olmayacaq. Azərbaycan bu mövqedən bir addım belə geri çəkilməyəcək. Ərazi bütövlüyü məsələsində heç bir güzəşt olmayacaq. Ermənistan anlamalıdır ki, Azərbaycanın güclü orusu olmaqla bərabər, ölkədə xalq-iqtidar həmrəyliyi mövcuddur və hər birimiz Ali Baş Komandanın müsəlləf əsgəriyik! Ermənistan nə qədər öz ordusu haqqında müsbət rəy formlaşdırmağa çalışsa da, ölkəsindəki pərakəndə və acınacaqlı vəziyyəti gizlətməyə səy göstərsə də, son döyüşlər onu subut etdi ki, ölkəmizin rəşadətli oğulları və ordusu qarşısında acizdirlər. Eyni zamanda, işğalçı ölkənin faşizim siyasəti yürtməsinin ən bariz nümunəsi dünyanın koronavirusla mübarizə etdiyi bir məqamda Azərbaycan Prezidentimizin irəli sürdüyü təşəbbüsü dəstəklənməməsi olsa da, 130 ölkə tərəfindən dəstəklənən bu təşəbbüs təcavüzkar Ermənistanı dünya dövlətləri içərisində bir daha terrorçu olduğunu sübut etdi.



*Ləman Yüzbaşova*
*YAP Biləsuvar rayon Təşkilatı Qadınlar Şurasının sədri*

Həiçinin, bu gün Ermənistanın gəncləri işğalçı ölkədə faşist siyasətinin olduğunu, orduda xidmətdən boyun qaçırdıqlarının bildirdikləri halda, Azərbaycanımızın Vətənini qorumağa hazır olan mətin gənclərimiz var. Son 5-6 gündə Azərbaycan-Ermənistan sərhəddinin Tovuz rayonu istiqamətində baş verən hadisələr Azərbaycan dövlətinin, Azərbaycan Ordusunun nələrə qadir olduğunun nümayişi ilə yanaşı milli birliyin, həmrəyliyin, eyni zamanda tarixin bütün dönəmlərində Vətəninə, el-obasına sədaətlə bağlı olan Azərbaycan gənclərinin mübarizliyinin, vətənpərvərliyinin daha bir nümunəsi oldu.

Bu günlərdə gənclərimizin işğal altındakı torpaqlarımızı düşmən tapdağından azad etmək üçün Ordumuza dəstək məqsədilə çoxminli yürüşünün, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin əmri ilə hər an silaha sarılmağa hazır olduqlarının şahidi olduq. Gənclərimizin iyulun 15-də Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlər başçısının çıxışından sonra düşmənə qarşı döyüşlərə qatılmaq üçün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin şəhər və rayon bölmələrinə müraciət etmələri də onların haqq-ədalət naminə döyüş əzminin bariz ifadəsi oldu.

Ölkənin ictimai həyatın bütün sferalarında fəaliyyəti, yüksək döyüş əzmi ilə seçilən Azərbaycan gəncliyi Vətənin dar günündə də ön sıralarda yer aldı. Qürurverici haldır ki, Azərbaycanın düşmənin məkrli niyyətinə qarşı zəfər yürüşündə ölkəmzin gəncləri ilə yanaşı YAP Biləsuvar rayon təşkilatının gəncləri də daim Ali Baş Komandanımızın müdrik rəhbərliyi altında Vətənini göz bəbəyi kimi qorumağa hər an hazır olduqlarını bir daha nümayiş etdirdilər. Bu gün də gənclərimiz dövlət, xalq qarşısında vəzifə və məsuliyyətini yaxşı dərk edərək Ali Baş Komandanımızın əmri ilə döyüşə getməyə, torpaqlarımızı erməni işğalçılarından azad etməyə onlara əmanət olan torpaqlara göz dikənlərə qarşı mübarizə aparmağa bir nəfər kimi hazırdırlar.

Strateqlərdən biri deyir ki, müharibələri axmaqlar başlayar, igidlər davam etdirər, ağıllılar bitirər. Müharibəni kimlər başlaması məlumdur. Biz isə qəhrəmanlıqla davam edirik.

# Elşad Mirbəşiroğlu: "Törədilən əməllərə hüquqi qiymət verilməlidir"

"Son günlərdə Azərbaycanın Fransa, Böyük Britaniya, İsveç, Polşa, Avstraliya, ABŞ, Niderland, Belçikada diplomatik nümayəndəliklərinə, həmçinin xarici ölkələrdə yaşayan və Ermənistanın iyulun 12-dən başlayaraq növbəti təxribatlarına etiraz məqsədilə aksiya keçirən dinc azərbaycanlılara qarşı radikal erməni qüvvələri tərəfindən aqressiv təxribatçı əməllər törədilir". SİA-nın verdiyi məlumata görə, bu fikirləri Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu deyib.

E.Mirbəşiroğlu bildirib ki, Azərbaycanın diplomatik nümayəndəliklərinin binalarına, eləcə də dinc azərbaycanlı nümayişçilərə qarşı törədilən təxribatlar özündə vandalizm və terror elementlərini ehtiva edir. Onun sözlərinə görə, ermənilərin törətdikləri əməllər cinayət məsuliyyəti doğurur.



"Dinc aksiyaçılara hücum edən erməni terorrçuları bir daha əsl mahiyyətlərini ortaya qoyurlar. Qeyd edim ki, bu hücumlar nəticəsində çoxsaylı aksiya iştirakçılarına ermənilər tərəfindən fiziki güc tətbiq olunur, onlara xəsarətlər yetirilir, soydaşlarımızın sərbəst toplaşmaq və öz fikirlərini ifadə etmək hüquqları pozulur. 1961-ci il Diplomatik Əlaqələr haqqında Vyana Konvensiyasına əsasən diplomatik nümayəndəliklərin hər hansı müdaxilə və zərərdən mühafizəsinin təmin edilməsi, eləcə də diplomata, onun şəxsiyyətinə, azadlığına və şərəfinə qarşı hər hansı hücumun qarşısının alınması qəbul edən ölkənin məsuliyyətindədir. Azərbaycanın diplomatik nümayəndəliklərinə və dinc aksiya iştirakçılarına qarşı törədilən bu təxribatların, vandalizm aktlarının qarşısı alınmalı, belə hallar həmin ölkələrin aidiyyəti orqanları tərəfindən araşdırılmalı və bu cinayətləri törədənlərin hərəkətlərinə hüquqi qiymət verilməlidir"-deyə, millət vəkili qeyd edib.



# *Ümidləri ölmüş müxaliflər*

**RƏFİQƏ**

***Deyir uzunqulaq bir dəfə palçığa batanda, ikinci dəfə o yolu getmir. Ancaq dünya dövlətlərinin koronavirusla mübarizə apardığı bir zamapnda bu bədbəxt "Milli Şura" deyilən ölü qurumun ümidi ölmüşləri indii də bu virusdan pul qazanmaq istəyirlər. Yenə də gündüzlərini gecələrə döndərən satın və cinayətkar Əli Kərimli, İsa Qəmbər, Arif Hacılı, Cəmil Həsənli, Gültəkin Hacıbəyli və...və... bu kimi satqın, mənəviyyatsız və özündən müştəbehlər müxtəlif sosial şəbəkələrdən düşmürlər. Abırsızlıq buna deyilir. Doğrudur, xalq onları çoxdan üfunət iyi verən zibilliklərə atıb, üstündən də bir təpik vurub. Ona görə də belələrinin danışdıqları da kimsəyə maraqlı deyil. Necə deyərlər: milçək bir şey deyil, könül bulandırır...***

Ancaq xalq belə bir ağır məqamda bir daha əmin oldu ki, öz seçimində əsla yanılmayıb. Çünki dünyaya gəldikləri gündən satqın və riyakarlıqla bu günə kimi xalqa düşmən olan Əli Kərimli, Cəmil Həsənli kimilər, bütün mənəviyyatlarını, hətta ailəsini belə satan Sevinc Osmanqızı kimi rəzillər bu epdemiyanın baş alıb getdiyi bir məqamda da yenə də "bir olmaları" və "çıxış yolu mitinq etməkdir" çağırışlar etmələri, ancaq və ancaq xalqda nifrət doğurur, heysinə toxunur. Artıq xalq bu gün onların cəzalandırılması tələbi ilə çıxış edir. Çünki xalq 27 ildən çoxdur görür ki, istər ölkə daxilində, istərsə də xaricdə oturub məlum qüvvələr tərəfindən bəslənən və ölkəmizə qarşı qarayaxma kampaniyası aparmaq üçün istifadə olunan ünsürlər üçün xalq, millət, dövlətçilik faktoru heç vaxt önəm daşımayıb. Onlara lazım olan erməni lobbisi və həmin lobbinin pulları hesabına fəaliyyət göstərən xarici qurumlara yalmanıb, dollar və avro qazanmaqdır. Və Əli Kərimli, Qənimət Zahid, Cəmil Həsənli, Gültəkin Hacıbəyli və...və... kimi ünsürlərin hər gün Sevinc Osmanqızının canlı efirində nə qədər də çənə vursalar da, böhtanlar yağdırsalar da, necə deyərlər: boş çanağın dolu çanağa vurmasına bənzəyir. Və bu siyasi quldurlar, Vətən xainləri bilməlidirlər ki, xalqın adından danışmağa onların haqqı da yoxdur. Çünki Azərbaycanda vətəndaş amili daim öndə olub və güclü dövlətimiz, güclü hakimiyyətimiz dünya liderlərinin həsəd apardığı LİDERİMİZ var! Bunu bütün inkişaf etmiş dövlət rəhbərləri də görür, xalqımız da ki, son 17 il hakimyyəti dövründə və bütün çətin məqamlarda olduğu kimi, bu gün də Prezident xalqının dayağındadır, yanındadır! Məhz Prezident İlham Əliyevin atdığı addımlar, əhalinin maddi rifah halının yaxşılaşdırılması istiqamətində gördüyü işlər, imzaladığı fərman və sərəncamlar və bunların icrası ölkəmizdə uzun illərdir reallaşdırılan inkişaf konsepsiyasının davamı, tərkib hissəsidir. Belə olan halda görəsən özlərini "müxalif qüvvə" adlandıranlar nə istəyir? Hələ də anlamırlar ki, bu gün Azərbaycan bir çox ölkələr üçün koronavirusla mübarizənin ən effektiv yollarını axtaran uğurlu modeldir.

Və bugün küt təfəkkürlü dağıdıcı düşərgə quldurları "evdə qall" kampaniyasına görə minnətdarlıq etmək əvəzinə "mitinq, mitinq" çağırışı etmələri ilə bir daha ölmüş ümidlərinin həyata keçirləcəyinə inanırlar. Bu mümkün olmayacaq. Çünki hansı böhtanı, şəri, yalanı ixrac etmək istəmələrindən asılı olmayaraq, bu gün Azərbaycan dövləti dünya koronavirus pandemiyasında çalxaladığı bir zamanda iqtisadi-siyasi, sosial cəhətdən möhkəmlənir, inkişaf edir. Və çox az zaman kəsiyində bu quldur və satqınların canlarında olan satqınlıq virusu onları əbədi olaraq layiq oldduqları yerə aparacaq.

# Sədaqət Vəliyeva: “İstəyirlər ki, Azərbaycan Ermənistan qarşısında aciz, gücsüz qalsın?”



“Bu gün Ermənistan və onun xidmətində olan “beşinci kolon” elə başa düşür ki, hələ də 1990-cı illərin əvvələridir və Azərbaycan da həmin ölkədir. Amma anlamırlar ki, bu günün Azərbaycanı bütün sahələr üzrə inkişaf etmiş, qüdrətli orduya, ayıqsayıq, intellektual vətəndaşa sahibdir. Məhz, bunun nəticəsidir ki, Ermənistan Tovuz istiqamətində təxribat törətməyə çalışdı Ordumuz tərəfindən layiqli cavabını aldı. “Beşinci kolon” isə Bakıda təxribat edib, Milli Məclisi zəbt etmək istədi, lakin xalqdan tərs sillər gördü. Budur, müasir və müstəqil Azərbaycan reallığı”. SİA-nın verdiyi məlumata grə, bunu Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib.

Sədaqət Vəliyeva bildirib ki, hazırda Ermənistan da, Milli Şura, AXCP kimi “beşinci kolon” da fürsət gözləyirlər, onlar Azərbaycanın büdrəməsini arzulayırlar. Necə ki, online “qeybətxana” iclasında Milli Şura Azərbaycan dövlətinə və xalqına olan kinini, küdurətini, nifrətini gizlədə bilməmişdi: “Gültəkin Hacıbəyli, Cəmil Həsənli, Qənimət Zahid bir-birini təbrik edirdi ki, neftin qiyməti düşüb. Buna kim sevinə bilər? Neftin qiymətinin azalmasına ancaq Ermənistan sevinir, çünki başa düşür ki, Azərbaycanın gəlirləri azalacaq və təcavüzkar ölkə də bundan faydalanacaq. Lakin özünü azərbaycanlı adlandıranlar, xalq naminə mübarizə apardığını iddia edən Milli Şura da sevinir. Məqsədləri nədir? Niyə sevinirlər? istəyirlər ki, Azərbaycan Ermənistan qarşısında aciz, gücsüz qalsın?”.

“Ermənistanın Tovuz rayonu istiqamətində təxribatının qarşısını igidliklə alaraq şəhid olan hərbçilərimizin də, Ordumuzun şücaətinə, qüdrətinə də həmin “beşinci kolon” kölgə salmağa çalışdı” - deyən Sədaqət Vəliyeva əlavə edib ki, qisas əməliyyatı nəticəsində onlarla düşmən, onların texnikası məhv edildiyini və bu qələbəni qeyd etmək üçün minlərlə insanın küçələrə çıxdığı biz zaman Azərbaycan Xalq Cəbhəsi Partiyasının rəhbərliyi və üzvləri bundan istifadə edib iğtişaş yaratmağa cəhd etdilər. Əlbəttə ki, xalqına, Vətəninə bağlı olan adam müharibə gedən vaxtda bunu etməz. Lakin Əli Kərimli, Cəmil Həsənli kimilər üçün Vətən, xalq önəmli olmadığı üçün onlar təxribat törətdilər, birbaşa erməni maraqlarına xidmət etdilər”.

Sədaqət Vəliyeva diqqətə çatdırıb ki, erməni yalanlarına və “beşinci kolon”un təxribat cəhdlərinə baxmaraq, cəmiyyətdə dövlətə, Vətənə bağlılıq çox güclüdür, vətənpərvərlik hissi çox yüksəkdir: “Bu gün Azərbaycan 1990-cı illərin dövləti deyil. Azərbaycan güclü dövlətdir, və güclü iqtidarı, onun güclü iradəsi var və ən önəmlisi xalqın dəstəyi var. Bunu Prezident İlham Əliyevə hər gün göndərilən minlərlə məktubdakı dəstək fikirləri sübut edir. Eyni zamanda, Ali Baş Komandanın çağırışı ilə 60 minə yaxın insanın könüllü hərbi xidmətə yazılması da eyni dəstəyin nümayişidir”.

**yap.org.az**

# “Azərbaycan öz torpaqlarını hərbi güclə işğaldan azad etmə haqqına sahibdir”



Azərbaycan Ordusu, bütövlükdə Azərbaycan xalqı təbiidir ki, başda Ali Baş Komandan Cənab İlham Əliyev olmaqla, istər 2016-cı ilin aprel döyüşlərində, istərsə də, bir müddət öncə, 12-15 iyul tarixlərində baş verən Tovuz döyüşlərində xalqımızın və dövlətimizin nə qədər əzmkar olduğunu ortaya qoydu. Bu sözləri SİA-ya verdiyi açıqlamasında siyasi şərhçi Azər Həsrət deyib. Siyasi şərhçinin sözlərinə görə, biz göstərdik ki, Ermənistan və onun işğalçı ordusu Azərbaycan ordusu ilə təkbətək, üz-üzə gələcəyi təqdirdə burnu ovularaq geri oturdulacaq və bunu 2016-cı ilin aprelində də göstərdik, 2020-ci ilin iyulunda da.

“Cənab Prezidentin açıq mətnlə, “Əgər Ermənistan özünə o qədər güvənirsə, Azərbaycanla təkbətək qarşı-qarşıya gəlsin və gücümüzü görsün” deməsi də təqdirəlayiqdir, diqqətçəkəndir. Yəni Cənab Prezident bununla əslinə qalanda Ermənistanın Azərbaycan torpaqlarını təkbaşına işğal etmədiyini, o torpaqları təkbaşına öz əlində tutmadığını və tuta bilməyəcəyini qeyd etmiş oldu. Belə bir zamanda Amerika Birləşmiş Ştatların Konqresində həmin məlum sənədin ortaya çıxması və bunun Ermənistanı üzüntüyə salması da çox mətləblərdən xəbər verir. Burada əsasən, mən düşünürəm ki, birincisi, işğal faktının açıq mətnlə ifadə olunması təqdirəlayiqdir. Yəni, Amerika Birləşmiş Ştatları açıq mətnlə işğal altında olan torpaqlar ifadəsini işlədir. İstər Ukrayna, Gürcüstan, Moldova olsun, istərsə də Azərbaycana münasibətdə bu ifadəni işlədir və məntiq də onu deyir ki, işğal altındakı torpaqlar varsa, deməli, işğalçı da var. Azərbaycanın məsələsində bu Ermənistandır, bütün dünyanın bildiyi Ermənistan. İkinci bir tərəfdən, məhz bu iyul döyüşlərindən sonra Amerika Birləşmiş Ştatlarının belə bir sənədi qəbul etməsi və birmənalı şəkildə Azərbaycan torpaqlarının işğalını məhz işğal kimi dəyərləndirməsi həm də ondan xəbər verir ki, Azərbaycan sadəcə olaraq bir işğalçı üzüzə deyil, onun arxasındakı qüvvə ilə də üz-üzədir. Həmin qüvvə ilə də ABŞ ziddiyyət içindədir. Bax Amerika Birləşmiş Ştatlarının o sənədini bu cür oxumaq lazımdır. Yəni, bununla ABŞ bizə ismarıc göndərir ki, Azərbaycan öz torpaqlarını hərbi güclə belə işğaldan azad etmə haqqına sahibdir, Azərbaycan hərbi əməliyyatlara başlayarsa, Amerika birləşmiş Ştatları buna yumşaq yanaşacaq. Yəni, burada heç bir beynəlxalq hüququn, müharibə hüququnun pozulmasından söhbət gedə bilməyəcək. Üçüncü bir tərəfdən də Ermənistana dəstək verən üçüncü tərəflərə də əslinə qalanda ABŞ öz ismarıcını göndərmiş olur. Yəni, Azərbaycan torpaqları işğal altındadırsa, o torpaqları işğaldan azad etmək hüququnu Azərbaycan özündə saxlayır və Azərbaycan hərəkətə keçərək o torpaqları işğaldan azad edəcəyi təqdirdə, üçüncü tərəf, hansıki Ermənistana bütün bu mərhələlərdə dəstək verir, həmin üçüncü tərəf neytrallığını qorumalıdır. Qorumayacağı təqdirdə ABŞ ədalətin bərpa olunması üçün Azərbaycanın haqq işini dəstəkləmiş olacaq. Təxminən mən bu sənədi bu cür oxudum, bu cür anladım, bu cür idrak elədim və düşünürəm ki, Azərbaycan Prezidentinin də Ermənistana o xəbəri göndərməsi, uca səslə deməsi ki, doğrudan da özünə güvənirsənsə, gəl təkbətək döyüşək, ordularımız qarşı-qarşıya gəlsin görək kim güclüdür, bu artıq yeni bir mərhələdən xəbər verir. Mən düşünürəm ki, Azərbaycan Prezidenti çox yaxın vaxtlarda Ermənistanın ümumiyyətlə burnunun ovulması üçün hərəkətə keçəcək. Bu həm diplomatik, həm də hərbi müstəvidə baş verəcək. Ona görə də Ermənistan tərəfinin ağlı başında olan kəsimi öz ölkəsinin labüd məğlubiyyətini indidən anladığına görə Paşinyan rejimini ittiham etməkdədir.Yəni uduzduqlarını, təkləndiklərini, ortalıqda yalqız qaldıqlarını etiraf edirlər, Azərbaycanın hərəkətə keçəcəyi təqdirdə başlarına gələ biləcəyini təsəvvür edirlər, ona görə də Azərbaycan diplomatiyasının bu uğurunu etiraf edirlər. Bununla da əslinə qalanda Ermənistanın o kəsimi Azərbaycan tərəfinə, Azərbaycan dövlətinə, onun rəhbərinə, Ali Baş Komandan Cənab İlham Əliyevə xəbər göndərmiş olurlar ki, bəli, biz illərdir necə böyük bir yanlışın içində olduğumuzu anlayırıq və sizin qələbənizi artıq indidən etiraf edirik. Yəni, faktiki olaraq bu gün elə bir əlverişli şərait yaranıb ki, qlobal güc olaraq ABŞ, eləcə də işğalçı dövlətin ictimai rəyi faktiki olaraq Azərbaycanın haqlı davasını tanımış olur. Mən düşünürəm ki, biz bundan istifadə etməliyik və belə edəcəyimiz təqdirdə Ermənistandakı ağlı başında olan kəsim də bizim davamızda ən azından neytrallığını qoruyacaq, işğalçı Ermənistan ordusu Azərbaycan torpaqlarından çəkilib getməyə məcbur olacaq. Bura onu da əlavə edək ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından kömək gözləyən Paşinyan suyu süzülə-süzülə geri qayıtdı, adi bir bəyanat belə onlardan ala bilmədi ki, bunun özü də elə Azərbaycanın xeyrinədir. Mən düşünürəm ki, çox əlverişli bir şərait yaranıb və bundan Ali Baş Komandan əminəm ki, uğurlu bir şəkildə istifadə edəcək. Bura onu da əlavə edək ki, artıq elə bu anda belə 50 mindən çox gəncimiz, vətəndaşımız könüllü şəkildə orduya getmək üçün artıq rəsmi müraciət eliyib, 10 minlərlə, 100 minlərlə insanımız müharibə gedən günlər küçələrə çıxaraq Ali Baş Komandanına öz dəstəyini ifadə edib, silah və səfərbərlik tələb edib. Mən düşünürəm ki, bunlar Azərbaycanın xeyrinə işləyir və çox əlverişli bir şərait yarandığını deyə bilərik”, deyə Azər Həsrət bildirib.

***İnam Hacıyev***

# Politoloq: “Rəsmi Yerevan xarici ölkələrdə azərbaycanlılara qarşı terroru sanksiyalaşdırıb”

***Son bir həftə ərzində Azərbaycanın bir sıra ölkələrdəki diplomatik nümayəndəliklərinə və aksiya keçirən dinc azərbaycanlılara qarşı radikal ermənilər tərəfindən təxribatlar törədilir. Bu təxribatları törədən ermənilərin arxasında mütəşəkkil qruplar, dəstələr dayanırlar. Baş verənlər erməni diasporasının terror mahiyyətli bir təşkilat olduğunu bir daha təsdiqləyir.***



Bu fikirləri AZƏRTAC-a açıqlamasında politoloq İlqar Vəlizadə deyib.

O diqqətə çatdırıb ki, təxribat törədən qrupların başçıları var və onlar idarə olunurlar. Həmin başçıların, havadarların tapılıb aşkara çıxarılması və cəzalandırılması mütləqdir: “Düşünürəm ki, Azərbaycan hökuməti, diasporamız, Azərbaycan səfirliklərinin nümayəndələri bunu cavabsız qoymayacaq və onlara layiqli cavab veriləcək. Bununla bağlı ciddi işlər aparılır. Hesab edirəm ki, müxtəlif ölkələrdə vəkillər tutulmalıdır, istintaqa başlanılmalıdır, yəni ərizələr, şikayətlər əsasında istintaq getməlidir. Biz bilməliyik ki, bunların arxasında konkret kimlər dayanır, onların məqsədləri nədir. Mən yen də istisna etmirəm ki, ermənilərin bu əməllərinin Ermənistanın indiki iqtidarı ilə, rəsmi İrəvanla əlaqəsi var. Rəsmi Yerevan xarici ölkələrdə azərbaycanlılara qarşı terroru sanksiyalaşdırıb. Onlar bu hadisələri koordinasiya şəklində törədirlər”.

İlqar Vəlizadə Los-Anceles və Brüsseldəki dinc aksiyalar zamanı azərbaycanlılara qarşı erməni vandalizmini illər öncə türk səfirliklərinə, səfirlik nümayəndələrinə, iş adamlarına qarşı törədilən terror əllərinin davamı kimi qiymətləndirib: “Bizim Azərbaycan vətəndaşlarına qarşı son şahidi olduğumuz erməni vəhşiliyi illər öncə türklərə qarşı başqa cür, açıq terrorlar formasında törədilib. Yenə də erməni diasporunun əli ilə bu terrorlar həyata keçirilib. Səfirliklərə, səfirlik nümayəndələrinə qarşı, Türkiyənin iş adamlarına qarşı, yaxud da ki, qərbdə yaşayan siyasətçilərinə qarşı açıq terror əməlləri həyata keçirilib. Bu, həmin o siyasətin, ənənənin başqa formada davamıdır. Dinc nümayişçilərə, adi insanlara qarşı belə terror əməlləri törədirlər. Bu, terrorun başqa formasıdır”.

Politoloq bildirib ki, ermənilər sərhəddə təxribat yaratmaqla azərbaycanlılara qarşı terror hərəkətlərinə yol verirlər. Hazırda sərhəddə ermənilər yenə terror törədirlər. İşğalçılar Azərbaycanın yaşayış məntəqələrini, dinc sakinlərini atəşə tuturlar. Son hadisələr onu göstərir ki, erməni diasporu və yaxud da erməni ideologiyasını həyata keçirən insanlar bunları terror yolu ilə etmək istəyirlər. Çünki bu, onların ənənəvi yoludur. Xaricdə soydaşlarımıza qarşı törədilən təxribat aktları bütün konvensiyaları və normaları, həmin o yaşadıqları ölkələrin qanunlarını kobud şəkildə pozan əməllərdir. Ermənilərin terror əməllərinə hüquq müstəvisində cavab verilməlidir.

Onun sözlərinə görə, müxtəlif mənbələrə əsaslanaraq demək mümkündür ki, xüsusilə Amerika Erməni Assambleyasının nümayəndələrinin Paşinyanın hakimiyyətə gətirilməsində rolu var. İndi bu adamlar, xüsusilə də ermənilərin qərb diasporu daha fəaldırlar. Paşinyan onların əlində onlara uyğun siyasəti həyata keçirən həm vasitə, həm də alətdir.

“Biz təəssüflər olsun ki, təkcə Azərbaycanda erməni təcavüzü ilə üz-üzə deyilik, eyni zamanda, dünyanın başqa-başqa ölkələrində də erməni terroru ilə qarşılaşırıq. Mütəşəkkil qaydada aparılan bir hərəkətə mütəşəkkil də cavab olmalıdır. Biz qardaş Türkiyə diasporu, digər dost diasporların köməkliyi ilə bu terrorun qarşısını almalıyıq”, - deyə İlqar Vəlizadə fikirlərini yekunlaşdırıb.

# Bakıda Orduya dəstək yürüşündə təxribat törətməyə çalışan AXCP üzvləri açıqlandı



***İyulun 14-dən 15-nə keçən gecə Bakıda ictimai qaydanın kobud surətdə pozulması hallarına yol verən daha bir qrup şəxs barəsində həbs qətimkan tədbiri seçilib. SİA-nın məlumatına görə, aparılan istintaq prosesi xalqın vətənpərvərlik hissləri ilə oynamaqla parlamentə hücum edərək xaos yaratmaq istəyən şəxslərin AXCP üzvləri və radikal dindarlar olduğunu təsdiqləyir.***

Fakt üzrə başlayan əməliyyat-axtarış və əməliyyat istintaq nəticəsində qanunsuz hərəkətlər törətməkdə şübhəli bilinən şəxslərdən daha bir qrupunun şəxsiyyəti müəyyən edilib. Saxanılanlar şübhəli şəxs qismində istintaqa cəlb edilib və barələrində cinayət işi başlanaraq məhkəmənin müvafiq maddələri ilə həbs olunublar.

Parlament qarşısında xaosa çalışan şəxslərin bəzilərinin kimliyinə və hansı dairəni təmsil etdiklərinə də aydınlıq gətirilib. Saxlanılan şəxslər arasında AXCP Rəyasət Heyətinin üzvləri Asif Yusifli, Bəxtiyar İmanov, ACXP üzvləri İsmayıl Həsənov, Ramid Nağıyev, Şəmsi Rəhimli, Məhəbbət Nağıyev və Ayaz Məhərrəmov da var. Bu şəxslər həmin vaxt zorakılıq hərəkətlərinə yol verdikləri üçün həbs olunublar. Həmçinin saxlanılanlardan radikal dindar, "Müsəlman Birliyi" adlı hərəkatının tərəfdarları Elçin Məmmədov, Kamil Mahmudov, Emin Hüseynzadə və Tural Vəliyev dini və dövlət əleyhinə çağırışlar etdiyi üçün həbs olunublar. AXCP bu dəfə aksiyaya koronavirus xəstəsi olan üzvlərini də göndərib. Partiya üzvləri olan Məhəmməd İmanlı, Vüqar Vəliyev, Nicat Əlizadə, Nicat İbrahim və Mirmehdi İbrahimov aktiv koronavirus xəstəsi kimi qeydiyyatdadırlar. Parlament qarşısında təxribat törətmək istəyənlərin sırf Milli Şuranın sifarişlərini yerinə yetirən qaraguruhçular olduğu aşkarlanıb. Müəyyən edilib ki, bu şəxslər sonradan kütləyə qoşularaq əhalinin vətənpərvərlik hissi ilə oynamaq, qarşıdurma yaratmaqla bağlı planlar quran antimilli şəbəkənin əlaltılarıdır.

---

# ABŞ-a köçən "Cəmilə gəlin" deyən oldumu?

## *Yaxud Cəmilə Həsənlini daşnaklarla və Cim Makqovern ilə nə bağlayir?*



Cemil Hasanli Arif Yunus və başqa 6 nəfərlə birlikdədir.
5 s
Konqresmen Cim Makqovernlə (Jim McGovern) ötən ilin sonlarında Congressdə tanış olmuşduq. ABŞ-da və dünyada demokratiyanın ardıcıl müdafiçələrindəndir. Onun təşəbbüsü ilə "Pandemia dönəmində insan haqlarının müdafiəsi aktı" adlı qanun layihəsi Congressə təqdim edilməsi də bir sıra avtoritar rejimlərin pandemiyadan öz əleyhdarlarına qarşı istifadə cəhdlərindən, kriminal-kleptokratik dövlət başçılarının Covid-19-dan müxalifətə və demokratik təsisatlara, azad sözə, vətəndaş cəmi...
Ardını Oxu

Qərb ölkələrində oturub, erməni dəyirmanına su tökən sapı özümüzdən olan baltaların bilavasitə erməni lobbisi və lobbinin təsiri altında fəaliyyət göstərən şəxslərlə əlbir olmaları barədə faktlar kifayət qədərdir. O cümlədən, əgərə nəzərə alarsaq ki, anti-Azərbaycan xarakterli fikirləri ilə çıxış edənlərin əksəriyyəti, məhz erməni lobbisinin təlimatları əsasında hərəkətə keçir, hətta ümummilli məsələlərdə kənarda qalmağı üstün tuturlar. Əgər bu gün Qənimət Zahid, Sevinc Osmanqızı və başqaları ermənı vandallarının vəhşiliklərinə göz yumur, etirazlı münasibət bəsləmirlərsə, onlar hər şey gün kimi üzə çıxmağa başlayır. Xüsusilə, AXCP sədri Əli Kərimlinin siyasi kuklası rolunu almış Cəmil Həsənlinin ABŞ-da oturub, ermənilərə güldən ağır söz işlətməməsi də bəzi məsələləri agah edir. Əslində, faktlar kifayət qədərdir və onların hər biri onların ifşasını artıqlaması ilə təmin edir. Ancaq biz bu faktları tez-tez ictimai rəyin diqqətinə çatdırmalıyıq və məlum etməliyik ki, bu gün "ulu millət" deyə bağıran "Milli Şura" və AXCP başbilənləri bu sözü azərbaycanlılara deyil, məhz ermənilərə xitab edirlərmiş!

Bu arada, YAP-ın gənc fəalı Anar Şahmuradov "Milli Şura"nın və Cəmil Həsənlinin erməni lobbisi, daşnaksütyunçularla əlaqələrini ifşa edən status paylaşıb. SİA maraqlı araşdırmanı oxucularının diqqətinə təqdim edir.

Əli Kərimli, Gültəkin Hacıbəyli, Cəmil Həsənli, "Azadlıq" qəzeti və AXCP trollarının son üç gündə "Çevir tatı, vur tatı" sanki təlaş qoparacaq tərzdə "ABŞ Konqresi Azərbaycana təzyiqləri artıracaq" başlıqlı statusları diqqətimi çəkdi. Bu anti-milli ünsürlər, əslində okeanın o tayında Azərbaycanın xeyrinə çıxarılan bir qərarı - ABŞ Konqresinin Qaydalar Komitəsində Ermənistanın Azərbaycan ərazilərini işğal faktını dövlət səviyyəsində ilk dəfə tanıyan 296 saylı düzəlişi qəbul etməsini kölgədə qoya bilmək üçün belə əldən-ayaqdan gedirmişlər.

Bəli, bu, onların ilk cəhdləri deyil. Bu adamlar fəaliyyətlərini bu istiqamətdə - Azərbaycan həqiqətlərinə kölgə sala və erməni dəyirmanına su tökə bilmək istiqamətində qurublar. Qeyd etdiklərimi apardığım kiçik araşdırma nəticəsində üzə çıxan faktlar da özlüyündə təsdiq edir.

### Cəmil Həsənli Azərbaycan əleyhinə bir palazlıq həcmdə donosu həmin şəxsə çatdırmasından sanki qəhrəmanlıq etmiş kimi danışır



armenianweekly.com/2019/11/04/thank-rep-jim-mcgovern-activists-at-anca-eastern-regions-13th-annual-banquet/
Thank Rep. Jim McGovern, Activists at ANCA Eastern Region's 13th Annual Banquet
November 4, 2019 at 9:57 am · ANCA-Eastern Region · Community News, ANCA News

Deməli, özünü "Milli Şura"nın sədri adlandıran, ABŞ-da "itgin gəlin" taleyi yaşayan Cəmil Həsənli son statuslarının birində yazır: "Konqresmen Cim Makqovernlə (Jim McGovern) ötən ilin sonlarında Konqressdə tanış olmuşduq". Bu cümlə ilə başlayan statusunda Cəmil Həsənli Azərbaycan əleyhinə bir palazlıq həcmdə donosu həmin şəxsə çatdırmasından sanki qəhrəmanlıq etmiş kimi danışır. Statusda həmin şəxsin adının qeyd olunması, əslində, araşdırma aparmaq üçün bir ipucu və ya açar sözüdür ki, baş verənlərdən hali olabiləsən.

Cim Makqovern! ABŞ konqresmeni olan şəxsin kimliyinə və fəaliyyət istiqamətinə diqqət edək. Konqresmen Cim Makqovern Armenian Assembly of America qurumunun tərkibində 1995-ci ildən təsis edilən Qafqazda Erməni Məsələləri Konqresinin üzvüdür. (Qurumun rəsmi saytından çıxarış).

Bundan əlavə Cim Makqovern "Daşnaksütyun" təşkilatına məxsus olan Amerika Ermənilərı Milli Komitəsinin (ANCA) üzvü, daha doğrusu əsas simalarındandır. Cim Makqovernin ANCA-nın rəsmi internet saytında yerləşdirilən bioqrafiyası haqqında məlumatlara nəzər saldıqda isə, onun etnik mənsubiyyətinin "qafqazlı" yazılması diqqət çəkir. (ANCA-nın rəsmi saytından çıxarış).



Rep. Jim McGovern: Recognizing Armenian Genocide important from human rights perspective

### Cəmil Həsənlinin mutasiyaya uğrayıb ən yaxşı halda Jimil McHasanli olması şübhə yaratmır

Olsun ki, erməni əsilli olan bu şəxsi ANCA müəyyən məsələləri pərdələmək üçün "Qafqaz əsilli" təqdim etməyi məsləhət bilir. Fəaliyyətinin əsas mərkəzində erməniləri himayə etmək dayanan bu şəxs Ermənistan mətbuatının əsas istinad nöqtələrindən biridir. Cəmil Həsənli sözügedən statusunda bu şəxslə ötən ilin sonlarında tanış olduğunu yazır və Cim Makqovern elə həmin ərəfələrdə erməni saytlarında daha populyar olub. (Erməni saytlarından çıxarış)

"Erməni genosidi"nin dünyada tanınmasını insan haqlarının vacib perspektivi" hesab edən bu şəxslə Cəmil Həsənlinin əlaqələrinin və tanışlığının olması məsələnin digər maraqlı tərəfidir. Cəmil Həsənli Milli Şura adlı qurumun sədridir və özünü müxalifət adlandıran radikallar - Əli Kərimli, Gültəkin Hacıbəyli, Qənimət Zahid, Sevinc Osmanqız kimiləri məhz bu şəxsi özləri üçün "ağsaqqal" hesab edirlər.

O "ağsaqqal" ki, onun saqqalı erməni lobbisinin əsas simalarından olan Cim Makqovern kimilərinin əlindədir. "Ağsaqqal" özünü yaxşı aparmasa, saqqalını yonarlar. Buna görə də Cəmil Cimə donos, Cim isə Cəmilə qrant, üstündə də paylaşmaq üçün "bəyanat verir".



ARMENIAN NATIONAL COMMITTEE OF AMERICA
ANCA Report Cards
ANCA Report Card: 115th Congress (2017-2018)
A+

Cəmil Həsənlinin Azərbaycana, dövlətə, dövlət başçısına qarşı bu qədər niyə aqressiv olmasını bu faktları bildikdən sonra başa düşmək elə də çətin deyil. Erməni aqressiyalı Cəmil Həsənlinin mutasiyaya uğrayıb ən yaxşı halda Jimil McHasanli olması şübhə yaratmır. Hər halda "xidməti" bəlli, köçüb getdiyi məkan və oturub-durduqlarının kimliyi bəlli. Yəqin ki, dediklərimlə nələrisə anlada bildim. Qaldı yazının başlığını anlamaq. Elə isə qayıdın, statusun başlığını 2 dəfə oxuyun və hər dəfə də başqa-başqa mənalarda anlayın!

P.S. Sözügedən statusunda Cəmil Həsənli Arif Yunusu da tag etməyi unutmayıb.

***Rövşən***

---

## Tahir Kərimli: "Milli Şura" öz simasını söyüşkən halda formalaşdırıb"



"Milli Şura"nın deyilən qondarma qurum, artıq dedi-qodu, qeybət xarakterli müzakirələrin keçirildiyi quruma çevrilib. "Şura"nın növbəti videokonfransında Cəmil Həsənli, Qənimət Zahid, Gültəkin Hacıbəyli, Məmməd Rahim və digərləri Mehman Əliyevi təhqir etdilər, onu İlqar Məmmədovun yerişini yerimək də günahlandırdılar və Natiq Cəfərlini ittiham hədəfinə çevirdi. Bütün bunlar qurumda təmsil olunan şəxslərin son dərəcə səviyyəsiz və əxlaqdan kənar ünsür olduğunu göstərir. Vəhdət partiyasının sədri, millət vəkili Tahir Kərimli "Səs" qəzetinə açıqlamasında bildirdi ki, "Milli Şura"nın videokonfranslarının keçirilməsi yaxşı haldır: "Yəni xalq bu insanların şəxsiyyətinə, danışdıqları sözə qiymət verir. Getdikcə bu videokonfranslar qədər onların imicinə zərbə vuran yoxdur. Təsadüfü deyil ki, bir necə üzvü qurumu tərk etdi, bir necə şura üzləri ümumiyyətlə videokonfranslarda iştirak etməyir. Demək olar ki, getdikcə "Milli Şura"dakılar özləri-özlərini təhqir edirlər. "Turan" informasiya agentliyinin rəhbəri Mehman Əliyev və Natiq Cəfərli kimi savadlı insanlar öz sözlərində deyirlər, söyüş söymürlər, konstruktiv yanaşmalar sərgiləyirlər, ağıllı davranırlar, təbii ki, bu radikalların xoşuna gəlmir. Çünki artıq "Milli Şura" öz simasını söyüşkən halda formalaşdırıb. Bunlar Azərbaycanın neftin qiymətinin aşağı düşməsinə sevinclərini ifadə edilər, adicə şər atmaqla məşğul olduqlarını ifadə edilər. Belə olan təqdirdə, təbii ki, "Milli Şura" doğurdan da dedi-qodu məkanına çevrilib. Demək olar ki, bunlar sosial bazalarını itiriblər".

***Gülyana***

***Azərbaycan ideologiyasına tətbiqi Azərbaycan etnosonu ölkə ərazisində yaşayan başqa etnik təbəqədən ayırmaq deməkdir. Halbuki Azərbaycan xalqı minilliklər boyu, əsrlər boyu ölkə ərazisində məskun olan bir çox etnik təbəqənin qaynayıb - qarışması və qovuşması nəticəsində yaranmışdır. Bu etnik proseslərdə yaxınlaşma və birləşmə elə bir vüsət təşkil etmişdir ki, onların inteqrasiyası vahid bir Azərbaycan millətinin təşəkkülünü meydana gətirmişdir. Nizami Cəfərov belə bir fikrin təsbit olunması üçün dəlillər gətirir ki, türk əsaslı Azərbaycan xalqının və Azərbaycan millətinin formalaşdığı məkan Azərbaycan ərazisindən ibarətdir. Eyni zamanda, Nizami Cəfərov Azərbaycan xalqının formalaşmasında iki mühüm dövrün mövcud olduğunu göstərir. Bunlardan biri diferensiasiya, ikincisi isə inteqrasiya dövrü adlandırılır.***

Nizami Cəfərovun həmin mülahizəsində deyilir: "Diferensiasiya dövrü dedikdə türk etnosunun müxtəlif xalqlara (o sıradan Azərbaycan türklərinə, yaxud Azərbaycan xalqına) ayrılması prosesinin., intensiv dövrü nəzərdə tutulur. İnteqrasiya isə Azərbaycan cəmiyyətinin etnik tarixinin sonrakı dövrlərinə aid olub türk (və bir sıra qeyri - türk etnoslarının) konsolidasiyası, bütöv bir xalq təşkil etməsi prosesindən ibarətdir". Nizami Cəfərov Azərbaycan xalqının bir etnik vahid kimi formalaşmasının üç mərhələ üzrə baş verməsi fikrini irəli sürür. Birinci mərhələ hun qıpçaq türklərinin Azərbaycanda məskunlaşması dövründən ibarət hesab edilir. Tarixdən məlum olduğu üzrə hun qıpçaqlar Azərbaycan ərazisində eramızın ilk əsrlərindən yayılmağa başlamışdır.İkinci mərhələ oğuz türklərinin Azərbaycana gəlişinə (XI əsrin əvvəlləri) aid olan dövrü əhatə edir.

yetişib sona çatmışdır. Türkçülük ideyasının yeniləşdirilməsi isə müstəqil dövlətçilik mərhələsində milli birliyin,müstəşəkilliyin və ictimai həmrəyliyin pozulmasına, eləcə də dövlətçiliyin möhkəmləsində sosial əngəllərin və lüzumsuz problemlərin meydana gəlməsinə gətirib çıxarır. Türkçülük ideyası, əslində, hansı mənada isə fərqli cəhətlər vardır. Bizə elə gəlir ki, ideya bir fikri, təsəvvürü, obrazı özündə əks etdirdiyi halda, ideologiya bir neçə fikri, təsəvvürü və yaxud obrazları özündə cəmləşdirir. Bu mənada ilk baxışda, milli ideya nisbətən məhdud, milli ideologiya isə daha geniş anlayış olmalıdır. Ancaq bunun özü-




Azərbaycan Respublikasının
Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin
İnkişafına
Dövlət Dəstəyi Fondu

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

# Azərbaycançılıq və türkçülük

Üçüncü mərhələ isə XV əsrin sonu, XVI əsrin əvvəlləri, xüsusən, Səfəvilər dövlətinin yarandığı dövrdən ibarət hesab edilir. Nəzərə almaq lazımdır ki, Sovet dövründə də Azərbaycanda etnik birliklər arasında diferensiasiya baş verməmişdir. Bu o demək deyildi ki, sovet ideologiyası elə Azərbaycan xalqının bütövləşməsi- nin tərəfdarı olmuşdu. Əksinə, sovet ideologiyası bütün xalqları formaca milli, məzmunca sosialist mədəniyyəti kimi fantasktik bir vəhdətin həyata keçirilməsinə aparmaq istəyirdi. Əslində, burada qlobal bir ruslaşdırma siyasətinin həyata keçirməsi məqsədi var idi. Lakin bu ideya baş tuta bilməzdi və tarix də buna imkan verməzdi. Etnik birliklər arasındakı əlaqələrin pozulmamasına gəlincə isə bu uzunmüddətli tarixi bir konsolidasiyamn nəticəsi kimi nəzərə alınmalıdır.

Müasir dövrdə də Azərbaycan xalqı dedikdə, məhz Azərbaycan ərazisində məskun olan etnik təbəqənin inteqrasiyası prosesinin nəticəsi başa düşülür. Artıq, həmin proses çoxdan türk xalqlarının etnik birliyini təcəssüm etdirən ictimai təvəkkürün vəhdəti və varisliyi mənasında başa düşülməlidir. Ona görə də azərbaycançılığı milli şüur kimi qəbul ediriksə, onu milli ideyamn təməli kimi qiymətləndiririksə deməli bütövlükdə dövlətçiliyin vəhdətini qəbul etmiş oluruq. Çünki dövlətçilik xalqdan və millətdən ayn deyil, millətin və xalqın bütövlüyünün, vəhdətinin təminatçısıdır. Bu mənada, Ramiz Mehdiyev haqlı olaraq yazır ki, "Milli ideya" xlaqı və hakimiyyəti birləşdirən bir zəmindir.

Azərbaycan milli ideologiyası ilə yanaşı, Azərbaycan milli ideyası anlayışından da istifadə olunur. Bu baxımdan əvvəlcə bilməliyik ki, hazırkı ədəbiyyatda milli ideya və milli ideologiya məsələlərinin qarışdırılmasına tez-tez rast gəlirik. Məsələn, bir çox hallarda azərbaycançılıq həm milli ideya, həm də milli ideologiya kimi təqdim olunur. Bu zaman başa düşülmür ki, milli ideya və milli ideologiya eynimi, yoxsa fərqlimi anlayışlardır. Yaxud da ideya və ideologiya arasında hansı mənada oxşar, nə münasibətdə də kifayət qədər ziddiyyətlər vardır. Bu baxımdan burada bütün bu məsələlərə, yəni burada irəli sürülən istənilən bir mülahizənin nə dərəcədə əsaslı və ya əsassız, subyektiv və obyektiv, elmi və qeyri elmi olmasına aydınlıq gətirilməsinə cəhd göstərilmişdir. Azərbaycançılığı polietnik Azərbaycan vətəndaşlarını birləşdirdiyi üçün hardasa milli ideologiya kimi qəbul edilə bilər. Çünki faktiki olaraq bu zaman Azərbaycanda yaşayan hər hansı bir etnosun dilinə, tarixinə, ədəbiyyatına, mədəniyyətinə və s. üstünlük verilmir. Əksinə, sayının az və ya çox olmasından asılı olmayaraq burada yaşayan bütün etnosların ortaq dəyərlərindən çıxış edilir. Bu zaman onun hədəfində siyasi, iqtisadi, dini, fəlsəfi, etik və baxışlarından asılı olmayaraq bütün azərbaycanlıların birliyi vardır. Başqa sözlə, azərbaycançılıq ona görə milli ideologiyadır ki, onun hədəfində ayrı-ayrı ideyaların (türkçülük, islamçılıq, modernləşmək, xristian olmaq və s.) elementləri olmalarına baxmayaraq, Azərbaycan dövlətinin suverenliyi, ərazisinin bütövlüyü, vahid Azərbaycan milləti, Azərbaycan dili, vahid Azərbaycan tarixi və s. məsələlər dayanır. Burada önəmli olan Azərbaycanda yaşayan azərbaycanlıların Azərbaycan dövlətçiliyi, ümumi vətən əsasında birləşməsi və onu qorumasıdır. Əslində azərbaycançılıq bu məqsədlə də irəli sürülmüşdür. Deməli, azərbaycançılıq Azərbaycan daxilində bir milli ideologiyadır.

Türkçülük və azərbaycançılıq ideyasının, məfkurəsinin qovuşduğu bu yeni təmayülün istiqaməti xalqımızın balalarının oxuyub savadlanmasına, cahillik əsarətindən xilas olmasına və bununla da bütün xalqı çar zülmündən, buxovundan, imperiyanın tabeliyindən azad etməyə yönəlmişdi.

Azərbaycançılıq nəzəriyyəsinin meydana gəlməsində heç şübhəsiz ki, Azərbaycan ədibi, filosofu, ədəbiyyat tənqidçisi, XX əsr Azərbaycan-türk ictimai fikrinin görkəmli nümayəndələrindən biri Əli bəy Hüseynzadənin rolu böyükdür. Ə.Hüseynzadə azərbaycançılığın nəzəri əsasını üç istiqamətdə - türkləşmə, islamlaşma və müasirləşmədə görürdü və bu ideyanı da meydana gətirmişdi. Bu ideya Ə.Hüseynzadə tərəfindən onun "Həyat" jurnalında 1905-ci ildə irəli sürülüb. Məlumdur ki, sonralar bu ideya Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi doktrinası olub və Xalq Cümhuriyyətinin üçrəngli bayrağında öz rəmzi ifadəsini tapıb.

Ə.Hüseynzadə "Füyuzat"da çap edilən məqalələrindən birində yazırdı: "Bizə fədai lazımdır! Türk hissiyyatlı, islam etiqadlı, Avropa (müasir) qiyafəli fədai!". Tədqiqatçılar qeyd edirlər ki, onun bu fikirləri füyuzatçı mətbuat orqanları tərəfindən təkmilləşdirildi və "Tazə həyat", "İrşad", "Yeni füyuzat", "Həqiqət", "Tərəqqi", "İqbal", "Sədayihəqq", "Şəlalə", "Açıq söz", "Bəsirət", "Qurtuluş", "Dirilik", "Azərbaycan", "Övraqi-nəfisə" kimi mətbuat orqanları tərəfindən "Türkləşmək, islamlaşmaq, müasirləşmək" - azərbaycançılıq şəklində formulə edilərək təbliğ olunurdu.

***Vahid Ömərov, f.ü.f.d. dos.***

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

Son səhifə

25 iyul

# Messi Milanda ev aldı!



***“Barselona”nın kapitanı Lionel Messinin atası Xorxe Messi İtaliyanın Milan şəhərindən ev alıb. Qol.az “La Gazetta dello Sport”a istinadən xəbər verir ki, onun evi Porta Nuova bölgəsində yerləşir.***

Messi ailəsinin vergi güzəştləri fonunda Milandan daşınmaz əmlak əldə etdiyi bildirilib. Eyni hal “Yuventus”un hücumçusu Kriştianu Ronaldoda da baş verməşdi. Qeyd edək ki, bi müddət əvvəl “İnter”in titul sponsoru “Pirelli” Messinin kluba transferi üçün ona təklif göndərmişdi.

# “Dünyanın ən yaxşı qapıçısı özüməm”



“Bavariya”nın qapıçısı Manuel Noyer özünü dünyanın ən yaxşı qolkiperi hesab edir. Qol.az Almaniya mətbuatına istinadən xəbər verir ki, bu barədə o, açıqlamasında bildirib: “Dünyanın ən yaxşı qapıçısı olduğuma şübhə yoxdur. Artıq 17 yaşında deyiləm. Hər zaman oynamağı sevirəm. Çempionlar Liqasını qazanmaq və mövsümüm üçüncü kubokunun sahibi olmaq istəyirəm”. Qeyd edək ki, Noyer başa çatan Bundesliqda 33 matçda meydana çıxıb və 15 görüşdə qapısını toxunulmaz saxlayıb.

# “Neftçi”nin yeni transferi: “Arzum Braziliya millisində oynamaqdır”



“Neftçi”yə menecerimin vasitəçiliyi ilə gəlmişəm. Daha sonra klub haqqında maraqlandım. Öyrəndim ki, ölkənin ən zəngin tarixə malik klubudur, güclü komandadır. Bu isə təklifi qəbul etməyimdə kömək oldu”. Bu sözləri “Neftçi”nin yeni transferi Rener Alves De Souza klubun televiziyasına müsahibəsində deyib.

Braziliyalı müdafiəçi “Neftçi” Avropadakı ilk klubu olduğunu bilidirib: “Avropa Liqasındakı çıxışlarımızdan çox şey gözləyirəm. İnanıram ki, komanda şəklində yaxşı hazırlaşacaq və qarşıya qoyulan məqsədlərə çatacağıq”.

19 yaşlı futbolçu şəxsi hədəfləri barədə də danışıb: “Əsas məqsədim öz üzərimdə çalışmaq və mövsümboyu yüksək səviyyədə çıxış etməkdir. Ən böyük arzularımdan biri isə Braziliya milli komandasında oynamaqdır. İstəyimə çatmaq üçün dayanmadan çalışmalıyam”. Qeyd edək ki, “Neftçi” Rener Alves De Souza ilə 2+1 illik müqavilə imzalayıb.

# “Liverpul”un kapitanı Premyer Liqada ən yaxşı futbolçu seçilib



***İngiltərənin “Liverpul” futbol klubunun kapitanı Cordan Henderson Futbol Jurnaslitləri Birliyi tərəfindən Premyer Liqada cari mövsümün ən yaxşı oyunçusu seçilib.***

AZƏRTAC xəbər verir ki, 30 yaşlı müdafiəçi səslərin dörddəbirindən çoxunu toplayaraq komanda yoldaşları Alisson Beker, Vircil van Deyk, Trent Aleksandr-Arnold, Sadio Maneni, “Mançester Yuneyted”dən Markus Reşfordu və “Mançester Siti”dən Kevin de Brüyneni geridə qoyub. Qeyd edək ki, C.Henderson 2011-ci ildən “Liverpul”un formasını geyinir.

# Lerikdə qayınata kürəkənini qətlə yetirərək basdırıb



İyulun 19-da Bakı şəhər sakini Əkbər Nuriyevin qayınatasının yaşadığı evdən çıxaraq bir daha geri qayıtmaması barədə Xətai RPİ-nin 34-cü Polis Şöbəsinə müraciət daxil olub. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, müraciət əsasında aparılan araşdırma zamanı polis və prokurorluq orqanları əməkdaşlarının birgə keçirdikləri istintaq-əməliyyat tədbirləri nəticəsində iyulun 19-da qayınatası A.Rzayevin Ə.Nuriyevi Lerik rayonunun Çayrud kəndindəki evinə aparmaşı, iyulun 20-də isə orada onu küt alətlə vuraraq qətlə yetirməsi, habelə sonradan kəndin meşə zolağında meyitini yandıraraq basdırması müəyyən edilib.

Polis və prokurorluq əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilmiş, meyit gizlədilmək məqsədi ilə basdırılmış yerdə yanmış vəziyyətdə aşkar edilərək məhkəmə-tibb ekspertizasının keçirilməsi üçün ekşqumasiya edilərək aidiyyəti üzrə təhvil verilib. Əməliyyat-axtarış tədbirləri nəticəsində A.Rzayev paytaxt ərazisində tutulub. Faktla bağlı Lerik rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanmışdır. Hazırda iş üzrə zəruri və intensiv istintaq tədbirləri davam etdirilir.

# Bu serialın çəkilişlərinə start verildi



Baş rollarını Mehmet Günsür, Beren Saat, Metin Akdülger və Melisa Şenolsunun canlandırdığı “Atiye” serialının 3-cü mövsümünün çəkilişlərinə start verilib. SİA-nın məlumatına görə, bu haqda aktrisa Beren Saat “İnstagram” səhifəsində xəbər verib. Belə ki, o, çəkilişdən fotolar paylaşaraq bu sözləri yazıb: “Yeni ayda çəkilişlərə başladıq. Atiyenin möcüzələri yenə bizimlədir. Bütün tədbirlər görüldü və biz başladıq”.

Qeyd edək ki, ekran işinin 2 mövsümünün çəkilişləri tamamlandıqdan sonra ilk mövsümü “Netflix”də yayımlanıb. Serialın 4 mövsüm yayımlanması planlaşdırılır.


## ELAN

**Azərbaycan Respublikası Bakı Şəhər İcra Hakimiyyəti Başçısı Aparatının Abadlaşdırma və Park-Bağ Təsərrüfatının İnkişafı Departamentinin Bağlar Təsərrüfatının inkişafı və istismarı Birliyinin Nardaran ərazisindəki 574 b nömrəli bağın istifadəyə verilməsi haqqında Xəlilov Novruz Yaqub oğlunun adına verilmiş 32986 saylı müqavilə itdiyi üçün etibarsız sayılır.**

* * *

**Bakı şəhər Yeni Suraxanı qəsəbəsi Orta qəsəbə küçəsi 2 №-li evin sakini Sona Mahhüseyn qızının adına ayrılmış Bakı şəhəri Xəzər rayonu Xaşa-Xuna bağ massivində yerləşən 169v/5 saylı bağ sahəsinin order və müqaviləsi itdiyi üçün etibarsız sayılır.**

* * *

**Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətin Suraxanı rayon şöbəsi tərəfindən Əliyev Elşən Aslan oğlunun adına verilmiş hərbi bilet itdiyi üçün etibarsız sayılır.**



*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**